# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin açılışı olub**



3

## "TRIPP layihəsi bütün bölgə üçün faydalı olacaq"



2

**Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib**

№ 189 (7357)
16 oktyabr 2025-ci il.
Qiyməti 60 qəpik

# Mərkəzi Asiyada kəsişən maraqlar

Rusiya və Avropa İttifaqı region uğrunda amansız savaşa başlayıblar



8

**Hikmət Hacıyev Almaniya Kanslerinin müşaviri ilə görüşüb**



2

**13 228 uşaq bir o qədər də qadın-ana deməkdir...**



6

**Kompüter qarşısında çox vaxt keçirənlərə XƏBƏRDARLIQ!**



16

**Ararat Mirzoyan Paşinyanın "kartlarını" açır...**



5

**Hələ 300 il dözün, qızlar!**



7

# "TRIPP layihəsi bütün bölgə üçün faydalı olacaq"

## Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiya Respublikasının xarici işlər naziri Elina Valtonenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbula görə təşəkkürünü bildirən Elina Valtonen, ilk növbədə, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubbun salamlarını dövlətimizin başçısına çatdırdı.***

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Stubba çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə Finlandiya Prezidentinin görüşləri, həmçinin Bakıda keçirilmiş COP29 tədbirində Finlandiyanın ən yüksək səviyyədə iştirakı məmnunluqla xatırlandı.

Elina Valtonen Vaşinqtonda Azərbaycanla Ermənistan arasında əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bunun ATƏT məkanında sülh və sabitliyin bərpası, həmçinin regional əməkdaşlıq baxımından önəmini qeyd etdi. Qonaq Azərbaycan və Ermənistanın müraciəti əsasında ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların fəaliyyətinin 2025-ci il dekabrın 1-dək ləğv ediləcəyini bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmalar sülh gündəliyinin irəli aparılmasına şərait yaratdı.

Prezident İlham Əliyev Vaşinqtonda Ermənistanın icrası ilə bağlı üzərinə öhdəlik götürdüyü TRIPP layihəsinin regional əməkdaşlıq baxımından önəminə toxundu, onun bütün bölgə üçün faydalı olacağını dedi. Söhbət zamanı ölkəmizlə ATƏT arasında əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycan-Finlandiya ikitərəfli əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Rusiya XİN Azərbaycan ilə müttəfiqlik bəyannaməsinin bütün potensialının açılmasına sadiqliyini təsdiqləyib



***Moskva Rusiya ilə Azərbaycan arasında "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin bütün potensialının açılmasına sadiqliyini bir daha təsdiqləyir. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirdiyi brifinqdə jurnalistlərin suallarını cavablandırarkən deyib. "Rusiya tərəfi Rusiya ilə Azərbaycan arasında "Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin bütün potensialının açılmasına sadiqliyini bir daha təsdiqləyir", -deyə diplomat vurğulayıb.***

O xatırladıb ki, oktyabrın 13-də Bakıda Rusiya, Azərbaycan və İran arasında enerji, nəqliyyat və gömrük sahələrində əməkdaşlığa həsr olunmuş üçtərəfli görüş keçirilib. "Rusiya Federasiyası Baş nazirinin müavini cənab Overçuk orada iştirak edib", -deyə XİN rəsmisi qeyd edib.

"Biz Azərbaycanla müxtəlif regional formatlarda - MDB, ŞƏT, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi, Xəzər beşliyi və "3+3" regional əməkdaşlıq platformasında, o cümlədən müasir Avrasiya təhlükəsizlik arxitekturasının qurulması kontekstində sıx əməkdaşlıqda maraqlıyıq", - deyə o bildirib.

M.Zaxarovanın sözlərinə görə, Moskva "Bakının Avrasiya İqtisadi İttifaqı ilə dialoqunun güclənməsini" qeyd edir ki, bu da Azərbaycan Baş nazirinin Avrasiya Hökumətlərarası Şurasının iclaslarında fəxri qonaq qismində iştirakı ənənəsi ilə təsdiqlənir. "Sonuncu belə hadisə bu il sentyabrın 30-da Minskdə baş verib", -deyə diplomat əlavə edib.

Rusiya XİN-in rəsmi nümayəndəsi əlavə edib: "Biz MDB formatında Bakı ilə qarşılıqlı fəaliyyəti müsbət qiymətləndiririk. Tərəfdaşlarımız müxtəlif sahələr üzrə əməkdaşlıqda çox fəaldırlar. Məsələn, bu il Azərbaycan MDB-nin hər üç tematik paytaxtına - gənclər, mədəniyyət və idmana ev sahibliyi edir". M.Zaxarova onu da xatırladıb ki, III MDB Oyunları sentyabrın 28-dən oktyabrın 8-dək 23 idman növü üzrə 1500-dən çox idmançının iştirakı ilə Azərbaycanın yeddi şəhərində uğurla keçirilib.

O vurğulayıb: "Biz Bakının oktyabrın 10-da Düşənbədə keçirilən MDB sammitinin bir sıra yekun sənədinə qoşulmasını alqışlayırıq. Buraya dövlət başçılarının transmilli cinayətkarlıqla mübarizədə əməkdaşlıq və Çernobıl AES-də baş vermiş faciənin 40 illiyi ilə bağlı bəyanatlar da daxildir".



# Hikmət Hacıyev Almaniya Kanslerinin müşaviri ilə görüşüb

***Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Berlində Almaniya Kanslerinin xarici və təhlükəsizlik siyasəti üzrə müşaviri Günter Sautter ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi X hesabında bu barədə paylaşım edib.***

Görüşdə iki ölkə arasında ikitərəfli və regional məsələlərin müzakirə olunduğunu qeyd edən Hikmət Hacıyev əlavə edib: "Regionda yaranmış yeni sülh dövrü əlaqələrimizin və Avropa İttifaqı ilə əməkdaşlığın inkişafı üçün geniş imkanlar açır".

# Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində MAMA ”Ana təbiət” beynəlxalq incəsənət sərgisinin açılışı olub

***Oktyabrın 14-də Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində MAMA ”Ana təbiət” beynəlxalq incəsənət sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.***

Heydər Əliyev Fondunun, IDEA İctimai Birliyinin və Azərbaycanın Almaniyadakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən sərginin açılış mərasimində çıxış edən səfir Nəsimi Ağayev daha əvvəl bir sıra ölkələrdə uğurla həyata keçirilən bu mədəniyyət layihəsinin Berlində təqdimatının əhəmiyyətini qeyd edib. Səfir bildirib ki, mühüm problemlərin yaşandığı hazırkı çətin dövrdə təbiət və insanlıq arasında bənzərsiz əlaqənin və vəhdətin təbliğinə xidmət edən belə sərgilərin təşkili böyük önəm daşıyır. Azərbaycanın nümunəsi göstərir ki, biz qüvvələrimizi birləşdirsək iqlim dəyişikliyi probleminin qarşısını ala bilərik.



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva çıxışında MAMA ”Ana təbiət” sərgisində 31 ölkədən 54 rəssamın əsərlərinin təqdim olunduğunu vurğulayaraq, bu əsərlərin incəsənətin sərhədləri aşaraq təbiəti qorumaq istəyinin ifadəçisi olduğunu bildirib.







Sərginin təşkilatçılarına, layihəyə qoşulan rəssamlara təşəkkürünü ifadə edən Leyla Əliyeva layihənin Bakıda başlandığını, daha sonra Bəhreyn, London, Roma və Tbilisidə təqdim olunduğunu diqqətə çatdırıb. Sərginin dünyanın ən ”yaşıl” şəhərlərinin birində - Berlində təşkilindən məmnunluğunu ifadə edən Leyla Əliyeva əsas diqqəti iqlim problemlərinin yaratdığı fəsadlara cəlb edərək Azərbaycanın müxtəlif ekosisteminin də bu təsirlərdən yan keçmədiyini vurğulayıb, Xəzər dənizinin səthinin kiçildiyini, Xəzər suitisi və Xəzər nərəkimiləri kimi nadir canlı növlərinin tədricən yox olduğunu qeyd edib.



Rəhbəri olduğu IDEA İctimai Birliyinin bütün layihələrinə yaradıcılıq və pozitiv ruhla yanaşdığını deyən Leyla Əliyeva təbiətin mühafizəsi məqsədilə həm Azərbaycanda, həm də dünyanın müxtəlif yerlərində bir milyondan çox ağac əkildiyini qeyd edib, nadir heyvan növlərinin qorunması, məktəb və universitetlərdə tələbələrə təbiətin mühafizəsinin vacibliyinin təbliği istiqamətində, eləcə də suya qənaətlə bağlı ”Bir damcı” layihəsi çərçivəsində görülən işləri diqqətə çatdırıb.



IDEA İctimai Birliyinin rəhbəri istedadlı azərbaycanlı heykəltaraş, Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalmış Samir Kaçayevin (1994-2016) də Berlində sərgisinin açıldığını qeyd edərək bildirib ki, onun həyatı faciəvi şəkildə yarımçıq qalsa da, ruhu, yaradıcılığı və Vətən sevgisi əsərlərində yaşamaqdadır.

Çıxışlardan sonra Leyla Əliyeva, Arzu Əliyeva və iştirakçılar sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.



Qeyd edək ki, müasir rəssamlar qrupunun heyrətamiz yaradıcılığının bəhrəsi olan MAMA ”Ana təbiət” incəsənət layihəsinə 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində Heydər Əliyev Mərkəzində start verilib. Heydər Əliyev Fondunun vitse-prezidenti və IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın ideya müəllifliyi ilə konseptual şəkildə hazırlanmış sərgi təbiəti passiv bir fon kimi deyil, əksinə, canlı, qidalandırıcı, davamlı və bərpaedici əsas qəhrəman kimi təqdim edir.

Sərgi iqlim dəyişiklikləri üzrə mesajı dünyaya yaymaq məqsədilə Bakı, Manama, Roma, London və Tbilisidə uğurla təqdim olunub. Layihənin Berlin mərhələsi də öz missiyasını davam etdirərək ekologiya, dayanıqlılıq və mədəni müdriklik mövzularında qlobal dialoqu təbliğ edir.

MAMA ”Ana təbiət” beynəlxalq incəsənət layihəsi Azərbaycan da daxil olmaqla, 31 ölkədən - ABŞ, Almaniya, Böyük Britaniya, Braziliya, Cənubi Koreya, Gürcüstan, Hindistan, İspaniya, İsrail, Latviya, Pakistan, Rusiya, Türkiyə, Ukrayna və digərlərindən fərqli sənətkarları bir araya gətirərək incəsənət vasitəsilə planetimizi gələcək nəsillər üçün qorumağa çağırır. Burada fərqli instalyasiya, rəsm, toxuculuq və multimedia nümunələri vasitəsilə müasir dövrün ekoloji və sosial problemləri ilə səsləşən hekayələr təqdim edilir. Layihə bəşəriyyət və təbiət arasındakı zəngin və mürəkkəb münasibətləri ön plana çəkir. Ekspozisiyadakı hər bir incəsənət əsəri insanın təbiətlə dərin bağlılığına bir mesajdır. Həmin mesajın məqsədi Yer kürəsini təkcə ilham mənbəyi kimi deyil, həm də həyat üçün zəruri qidalandırıcı qüvvə kimi təqdim etməkdir.

Qeyd edək ki, Leyla Əliyeva və Arzu Əliyeva həmin gün ”Q” Berlin İncəsənət Qalereyasında istedadlı azərbaycanlı heykəltaraş, Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalmış Samir Kaçayevin ”Yarımçıq qalmış, lakin əbədi” adlı sərgisinin də açılışında iştirak ediblər. Sərginin açılışında şəhid Samir Kaçayevin ailə üzvləri də iştirak ediblər.

Sərgi Berlin tamaşaçılarını Samirin dünyasına - dəqiqliyə, sənətə bağlılığa uzanan zəngin mənəvi dərinliyə malik bir aləmə dəvət edir. Bu sərgi Samir Kaçayevin yarımçıq qalan sənət dünyasının sükutla yazılmış davamıdır. Onun fırçasının toxunuşları yarımçıq qalsa da, hər bir əsərində zamanın sərhədlərini aşan bir nəfəs yaşayır. Sərgi Samirin sönməyən ilhamını, sənətin ölümə meydan oxuyan əbədiliyini və ruhunun rənglərdəki davamını təcəssüm etdirir. Burada hər baxış, hər bir xətt onunla bitməyən, amma sonsuzluğa uzanan bir hekayənin parçasıdır.

# Zəfər soraqlı tarixi günlərimiz

***16 oktyabr 2020-ci il: Müharibənin 20-ci günü. Həmin tarixdə cəbhədən aldığımız xəbərlər bizi Zəfərə səsləyirdi. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi.***

"Azərbaycan Ordusu Xocavənd rayonunun daha üç kəndini işğaldan azad edib. Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 16 oktyabr 2020-ci il tarixində özünün rəsmi "Twitter" səhifəsində yazırdı.

Həmin gün Türkiyənin "A Haber" televiziya kanalına müsahibə verən Azərbaycan Prezidenti Ermənistanın təxribatlara əl ataraq terror aktları törətdiyini bildirirdi: "Təəssüf ki, mülki şəxslər arasında insan itkisi davam edir, artıq 47 nəfər oldu və 222 mülki şəxs yaralandı, 2 minə yaxın ev ya tamamilə dağıldı, ya da ki, böyük ziyan gördü. Mən bunu demişdim, biz bu insanların qisasını döyüş meydanında alacağıq. Biz heç zaman mülki şəxslərə qarşı atəş açmamışıq, bu gün də açmırıq, baxmayaraq ki, Gəncəyə, Tərtərə hücumlar oldu. Bu gün səhər saat 6-dan 8-ə qədər, - indi saat 9:10-dur, - Tərtər, Ağdam, Goranboy və digər rayonlara 220-dən çox mərmi düşüb. Yəni, bu namərd hücumlar davam edir. Onların əsas hədəfi mülki şəxsləri öldürmək, Azərbaycan əhalisi arasında panika, qorxu yaratmaq, bizi dayandırmaq və öz çirkin niyyətlərinə çatmaqdır. Ancaq görürlər ki, bu, alınmır və nə qədər mərmi düşürsədüşsün Azərbaycan vətəndaşları öz torpağında qürurla yaşayırlar və bütün bu çətinliklərə dözürlər. Onları birləşdirən bir amal var - Qarabağın qaytarılması, Azərbaycan bayrağının işğal edilmiş bütün torpaqlarda qaldırılması və ərazi bütövlüyümüzün bərpa edilməsidir".

## HƏR GÜN QƏLƏBƏ

Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS qurğusu, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 avtomobil texnikası məhv edilib. Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik halı qeydə alınıb. Ermənistan ordusunun 5-ci dağatıcı alayının müdafiə zolağında mövqe tutan şəxsi heyət arasında xeyli sayda ölən və yaralanan var. Geri çəkilən düşmən xeyli sayda avtomobil və zirehli texnikanı mövqedə ataraq qaçıb. Bundan başqa, 9-cu motoatıcı alayın müdafiə zolağında artilleriya batareyası məhv edilib.

44 günlük vətən müharibəsində insanlar bu amal ilə yaşadılar və Zəfər gününə qədər qələbə soranları onları tərk etmədi. Hər gün QƏLƏBƏ!!!

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının ərazilərini atəşə tutmaqda davam edirdi. Azərbaycanın yaşayış məntəqələrinə raket zərbələri endirilməsi Ermənistan rəhbərliyinin siyasi və hərbi acizliyinə dəlalət edirdi. Azərbaycan Silahlı Qüvvələrinin əkshücum əməliyyatının uğurlu olması açıq-aşkar görünürdü.

Azərbaycan hərbçiləri işğal altında olan əraziləri "addım-addım" azad edirdi.

Oktyabrın 15-i gün ərzində və 16-na keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti yenə də gərgin olaraq qalırdı. Düşmən işğaldan azad edilmiş Cəbrayıl və Hadrut istiqamətlərindəki bölmələrimizin mövqelərini və cəbhə xəttinə yaxın kəndləri dünən gün ərzində raket, artilleriya və minaatanlardan atəşə tuturdu. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyət nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 avtomobil texnikası məhv edilib və sıradan çıxarılmışdı. Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik halı qeydə alınmışdı.



## "12 YAŞINDA OLMAĞIMA BAXMAYARAQ, MƏN DƏ ÖN CƏBHƏYƏ GETMƏK, VƏTƏN UĞRUNDA DÖYÜŞMƏK İSTƏYİRƏM"

Həmin zamanlarda Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Ali Baş Komandan İlham Əliyevə məktublar yazmaqda davam edirdilər. Məktublarda Azərbaycan Prezidenti başda olmaqla, şanlı Ordumuzun qazandığı zəfərlərə görə təşəkkürlər edilirdi. Bakı şəhər sakinlərindən biri yazırdı: "Hörmətli Prezidentimiz, mən Ordumuzun qələbələrinə çox sevinirəm. Anam isə sevincindən ağlayır. Əziz Prezidentimiz, mən də əsgər olmaq istəyirəm. 12 yaşında olmağıma baxmayaraq, mən də ön cəbhəyə getmək, Vətən uğrunda döyüşmək istəyirəm. Şəhidlərimiz tarixə düşür, mən də tarixə düşmək istəyirəm. Vətənimi, Azərbaycanı anam qədər sevirəm. Qardaşlarımı vuruşan görəndə, mən də onların yanında olub, kömək etmək istəyirəm. Bunun üçün mən balaca deyiləm. Erməniləri Sizin dediyiniz kimi, "iti qovan kimi" qovmaq istəyirəm. Mən Vətənimi sevirəm! Mən torpağımı sevirəm! Mən Prezidentimi sevirəm!". Başqa bir məktubda isə belə yazılırdı: "Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə qüdrətli Ordumuzun işğal olunmuş torpaqlarımızı azad etməsi xəbərləri bütün vətəndaşlar kimi biz ruhanilərin də böyük sevincinə səbəb oldu. Rəşadətli Ordumuzun bu minvalla Şuşada üçrəngli bayrağımızı dalğalandıracağı gün çox yaxındadır. Cənab Prezident, ehtiyac yaranarsa, biz ruhanilər də müqəddəs torpaqlarımızın mənfur düşmənin tapdağından azad edilməsi uğrunda canımızla, qanımızla döyüşməyə hazırıq. Sizin kimi Ali Baş Komandanımız olduğuna görə fəxr edirik. Bu haqq işimizdə Allah Sizi, millətimizi və dövlətimizi qorusun!".

## "HƏR GÜN BİZ YENİ ƏRAZİLƏRİ İŞĞALDAN AZAD EDİRİK, HƏR GÜN YENİ STRATEJİ YÜKSƏKLİKLƏRİ AZAD EDİRİK"

"Azad edilmiş torpaqları hesablamaq o qədər də çətin məsələ deyil, halbuki hər gün bu, dəyişir. Dünən mən yeni altı kəndin işğaldan azad edilməsi xəbərini Azərbaycan xalqına çatdırdım. Ondan əvvəlki gündə daha çox sayda kəndlər azad edildi. Bu proses davam edir. Demək olar ki, hər gün biz yeni əraziləri işğaldan azad edirik, hər gün yeni strateji yüksəklikləri azad edirik. Ona görə bu rəqəmlər dəyişir. Ancaq bu gün rəsmi qaydada verilən məlumat deməyə əsas verir ki, hansı bölgələr azad edildi.

İndi bu xəritədə, misal üçün, Hadrut yoxdur. Artıq Hadrut bizdədir. Füzulinin ətrafında kəndlərin mütləq əksəriyyəti bizdədir. Artıq Füzuli bizim gözümüzün qabağındadır. Ondan sonra cənub istiqamətində də irəliləmişik. Şimalda Murovdağ mövqeləri bizdədir, Suqovuşan bizdədir. Yəni, bütün istiqamətlər üzrə böyük uğurlar əldə etdik və bu proses davam edir. Hesab edirəm və əminəm ki, Azərbaycan xalqı bunu diqqətlə izləyir. Xüsusilə o kəndlərin sakinləri ki, o kəndlər işğaldan azad edilir, onlar üçün əlbəttə, bu, tarixi günlərdir", - deyə Prezident müsahibəsində bildirmişdir.

## "SİNƏSİNİ QABAĞA VERƏRƏK, HEÇ NƏDƏN QORXMAYARAQ, ƏLİNDƏ BAYRAQ, ƏLİNDƏ SİLAH DÜŞMƏNİ QOVAN DA ƏSGƏRDİR"

Dünyanı öz qüdrəti ilə təəccübləndirən Azərbaycan tarixdə misli görünməmiş bir tarix yazdı. Azərbaycan xalqı şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Dünyaya, düşmənə məğrur və yenilməz xalq olduğunu göstərən Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək işğala son qoydu. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti və "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur", - deməsi böyük bir Zəfər tariximizə çevrildi. Bu tarix bu günün və gələcəyin nəsillərinə iftixar yaradan bir gün oldu. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndini, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini işğaldan azad etdi. Eləcə də Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklərimiz erməni işğalçılarından azad olundu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətli siyasi iradəsini ortaya qoymuş oldu. Prezident İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibəsində ölkəmizin haqq mövqeyini dünyaya çatdırmış oldu.

Azərbaycan xalqının torpaq uğurunda savaşı və sonda qələbə tarixinin yazılması ilə nəticələnən 44 günlük müharibə Azərbaycan ordusunun Vətən Müharibəsindəki hünərindən, qəhrəmənamığından qaynaqlanırdı. Sanki hadisələr xronoloji ardıcıllıqla davam edirdi. Beləliklə, Zəfər tariximiz yazıldı. Bu sevincləri yaşadan Azərbaycan əsgəri qəhrəmanlıq simvoluna çevrildi. Döyüşdən qorxub qaçan erməni Azərbaycan əsgəri qarşısında məğlub olduğunu dünyaya göstərdi. "Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik", - deyə bildirən Cənab Prezident torpaqlarımızı ancaq Azərbaycan əsgərinin, Azərbaycan zabitinin azad etdiyini qeyd edirdi: "Sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir".

## "8 NOYABRDA ERMƏNİ ORDUSU ARTIQ TƏSLİM OLMUŞDU"

Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir. Cənab Prezidentin bildirdiyi kimi, "Noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 Noyabr tarixində qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu".

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Azərbaycanın güclü ordusu, yenilməz ordusu bu tarixi bizlərə yaşatdı.

Təbii ki, bu uğurlu yolda necə-neçə oğullarımız canlarından keçdi, şəhidlik zirvəsinə yüksəldilər. Onların qarşısında baş əyirik və Azərbaycan xalqı hər zaman onların xatirəsini yad edəcək. Belə oğulların keçdiyi yollar ərənlik məktəbi olaraq öyrənilir. "Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik", - deyən dövlət başçısı bildirib ki, şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq: "Azərbaycan xalqı, indiki nəsil və gələcək nəsillər həmişə şəhidlərimizlə fəxr edəcək".

***Zümrüd BAYRAMOVA***

# Dmitri Solonnikov: "Rusiya-Azərbaycan münasibətləri fundamental xarakter daşıyır"

**Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyev arasında bu il ilk genişmiqyaslı görüşü təhlil edib. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Dmitri Vladimiroviç, Putin və Əliyev bu il ilk dəfə tam şəkildə görüşüblər və ikitərəfli münasibətlərdə son böhran fonunda bir çox mühüm bəyanatlar verilib. Ölkələr arasında vəziyyəti necə xarakterizə edərdiniz?***

- Fikrimcə, Rusiya və Azərbaycan liderləri arasında şəxsi münasibətlər həmişə müxtəlif dərəcədə müsbət olub. Xatırladaq ki, Vladimir




Putin avqust ayında Mehriban Əliyevanı ad günü münasibətilə təbrik etmiş və onun salamlarını İlham Heydəroviç Əliyevə çatdırmışdı. Sentyabrda Rusiya və Azərbaycan liderləri Çində keçirilən ŞƏT sammitində qısa, lakin qısa görüşdülər.

İlham Əliyev oktyabrın 7-də Vladimir Putinə zəng edərək onu ad günü münasibətilə təbrik edib. İki lider arasındakı şəxsi münasibətlər həmişə hörmətli və bir-birini tamamlayır. Və bu şəxsi münasibət həmişə qarşılıqlı əlaqənin özəyi olmuşdur.

Vladimir Putin tamamilə haqlı olaraq bir daha üzr istəyib və oktyabrın 9-da İlham Əliyevlə Düşənbədə keçirdiyi görüşdə AZAL-ın Rusiya səmasında qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verib. Həqiqətən də çoxları iki lider arasında söhbətin olacağını gözləyirdi. Və oldu. Bu, səmimi, qarşılıqlı hörmətli idi və münasibətləri normallaşdırmağa yönəlmişdi. Görüş jurnalistlərin iştirakı ilə keçirilib. Müvafiq olaraq, bütün bəyanatlar açıq idi. Ona görə də bir daha onların dinlənilməsi nəzərdə tutulurdu.



Biz bilirik ki, İlham Əliyev danışıqlar zamanı əməkdaşlığın müxtəlif sahələrini müsbət kimi xarakterizə etdi ki, bu da indiki şəraitdə çox vacibdir. Bu, münasibətlərin diqqətini və gələcək istiqamətini vurğulayır. Azərbaycan prezidenti Putinlə görüşündə də iki liderin göndərdiyi mesajların hər iki ölkənin xalqları tərəfindən qəbul ediləcəyinə ümid etdiyini bildirib. Bu, çox vacib bəyanatdır, çünki hər iki ölkədə aparılan məlumat kampaniyalarının əhaliyə necə təsir etdiyini xatırlayırıq. Bu, həm Putin, həm də Əliyev tərəfindən ölkələr arasında normallaşmaya çağırış idi. Eyni zamanda Rusiya lideri qeyd edib ki, Rusiya ilə Azərbaycan arasında dövlətlərarası böhran yoxdur. O, insidenti ağır faciə- göyərtəsində insanların olduğu AZAL təyyarəsinin qəzası fonunda emosiyaların böhranı kimi qiymətləndirib.

Bəli, bu çətin vəziyyəti həll etmək lazım idi. Eyni zamanda, biz iki ölkə arasında konstruktiv iqtisadi əməkdaşlığın ardıcıl surətdə davam etdiyini gördük. Ticarət dövriyyəsi artıb və artmaqda davam edir. Nəqliyyat layihələri müzakirə olunub və hələ də müzakirə olunur. Avqust ayında Həştərxanda Rusiya-Azərbaycan Hökumətlərarası İclası keçirilib. Bundan sonra Rusiya və Azərbaycan xarici işlər nazirləri arasında telefon danışığı olub və görüşü yüksək qiymətləndiriblər. Hər halda, bu çətin dövrdə iki ölkə arasında mənfi dinamikanı aradan qaldırmaq istəyi var idi.

Bu yaxınlarda Bakıda Rusiya, Azərbaycan və İran arasında Şimal-Cənub Nəqliyyat Dəhlizi və enerji ilə bağlı üçtərəfli danışıqlar keçirilib. Gəlin etiraf edək ki, kim nə deyir desin: tərəfdaşlıq həm Rusiya, həm də Azərbaycan üçün son dərəcə vacibdir. Bu həmişə belə olub. Vladimir Putin İlham Əliyevin atası Heydər Əliyevi tanıyırdı, o, Azərbaycanın Rusiya ilə əlaqələrini qoruyub saxlamağı müdafiə edirdi. Putin isə Əliyevi həmişə yüksək qiymətləndirib. Əliyev kimi. Qordi düyünü kəsmək lazım idi. Təsadüfi deyildi ki, Rusiya prezidenti Düşənbədə Əliyevlə danışıqlardan sonra iki ölkə münasibətlərinin əsaslı və davamlı olduğunu deyib. O, Azərbaycanın rus dilini qoruyub saxlamasından və inkişaf etdirməsindən minnətdarlıqla danışıb. Müsbət yanaşma münasibətlərimizin bəlkə də ən mühüm aspektidir- bu gün və gələcəkdə.

Gözlənildiyi kimi, liderlərimiz razılığa gələcəkdilər və bu da baş tutmağa başladı, çünki qarşılıqlı fəaliyyət, anlaşma və qarşılıqlı hörmət hər iki ölkənin maraqlarına uyğundur: dostluq, təhlükəsizlik və səmərəli əməkdaşlıq.

Bizim nəzərdə tutduğumuz strateji gələcəyə baxış həm Moskva, həm də Bakı nöqteyi-nəzərindən təxminən eyni şəkildə qurulur. Əlaqələrimiz genişlənib, var və bundan sonra da genişlənəcək.

Bəli, ikitərəfli münasibətlərdə neqativliyi qızışdırmaq, milli maraqlara və inkişafa, qarşılıqlı faydalı əməkdaşlığa deyil, şəxsi ambisiyaların arxasınca yönəlmiş informasiya kampaniyaları keçirənlər olub və olacaq. Həm Rusiyada, həm də Azərbaycanda iki ölkə arasında əlaqələri pozmağa çalışan qruplar və qüvvələr var. Bu, obyektiv olaraq doğrudur. Münasibətlərdəki neqativləri özlərinə məxsus bir şeyə çevirmək üçün var gücü ilə cəhd edənlər olub və indi də var.

Biz iki ölkə liderlərinin münasibətlərdəki mürəkkəb vəziyyəti necə həll edə bildiklərinin bir nümunəsini görürük. İki prezident ölkələrimizin gələcəkdə necə yaşayacağını nümayiş etdirəndə münasibətlərin inkişafının ən yüksək səviyyədə başlaması mühüm əhəmiyyət kəsb edirdi. Bəli, bizim üçün ən yüksək səviyyədə əməkdaşlığımızın təsdiqlənməsi və yeni təkan verməsi vacibdir.

- MDB Dövlət Başçıları Şurasının Düşənbədə Putin və Əliyevin iştirakı ilə keçirilən iclasında Belarus prezidenti Birlik ölkələri arasında qarşılıqlı hörmətin vacibliyini bəyan etdi. Digər tərəfdən, daha bir mühüm məqam var: Birlik ölkələri MDB+ formatını təsis ediblər. Bu, qlobal proseslər fonunda Birliyin təkmilləşdirilməsidirmi və bu kontekstdə bütün MDB ölkələrinin bir-birini anlaması nə dərəcədə vacibdir? Rusiya və Azərbaycan prizmasından, məsələn, Lukaşenkonun məsləhəti əsasında?

- Bu, son dərəcə vacib və maraqlı mövzudur. Gördük ki, son illər MDB üzvlərinin sayı azalır, mürəkkəb parçalanma prosesləri gedir. Amma indi biz Birliyin öz strukturunu cari tendensiyalara uyğun yeniləmək zərurətini və dünyaya daha geniş baxış keçirmək istəyini necə dərk etdiyini görürük. Bu baxımdan, MDB dövlətləri arasında münasibətlərin əməkdaşlığa və qarşılıqlı faydaya yönəldilməsi vacibdir.

***Tərcümə - Elçin Bayramlı***

# Ararat Mirzoyan Paşinyanın "kartlarını" açır...

## *Mətləb Salahov: "Konstitusiya dəyişikliyindən imtina "real sülhdən çox uzağıq" deməkdir"*

"Mən bir müddət öncə də bu barədə demişdim: rəsmi İrəvan əksər maddələrində Azərbaycana qarşı ərazi iddiası olan və beynəlxalq hüquqa zidd sayılan hazırkı Konstitusiyanı dəyişdirməkdən imtina etməklə getdikcə real sülh prosesindən uzaqlaşır. Əvvəlcə Ermənistan XİN sözçüsü çıxıb heç br konstitusiya dəyişikliyindən söhbət getmədiyini dedi, ardınca Ararat Mirzoyan yenicə açıqlama yaydı ki, "bizim Azərbaycan qarşısında Konstitusiya dəyişikliyi barədə öhdəliyimiz yoxdur". Bunu o adam elan edir ki, Nikol Paşinyanla birlikdə bu ilin avqust ayında Vaşinqtonda Donald Trampın qarşısında sülh prosesi üçün öhdəlik götürmüşdülər.

Məgər A.Mirzoyana aydın deyil ki, bir sıra müddəaları başqalarının ərazi bütövlüyünü təhdid edən bu təcavüzkar konstitusiya dəyişilməsə Azərbaycanla hansısa real sülh olmayacaq? Məncə bu məsələdə ənənəvi erməni hiyləgərliyi ön



plandadır.Ya N.Paşinyan və komandası artıq quyruqlarının qapı arasından çıxdığını düşünür, ya da həmişəki kimi riyakar mövqe sərgiləməklə xaricdə daha güclü himayədar axtarmağa və daxili siyasətdə xal qazanmağa çalışırlar".

Bu fikirləri SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov deyib. Onun fikrincə, artıq A.Mirzoyan səviyyəsində Bakıya qarşı bu cür riyakar yanaşma İrəvanda sülh əvəzinə riyakar diplomatiyaya sarıldığını açıqca ortaya qoyur. "Bu, açıq-aşkar sülh müqaviləsinə qarşı baş qaldırmaqdır. Çünki Ermənistanda bütün sosial təbəqələrə və siyasi qruplara aydındır ki, rəsmi Bakı özünə qarşı təcavüzkar maddələrlə dolu hazırkı konstitusiya dəyişilmədən Sülh Müqaviləsinə yaxın durmayacaq. Çünki konstitusiya dəyişikliyi olmadan Sülh Müqaviləsi imzalansa belə, bu real sülh olmayacaq.

Müvəqqəti kağız parçası olacaq. Görünür ənənəvi erməni təxribatı yenə baş qaldırıb. Sabah N.Paşinyan və komandası konstitusiya dəyişikliyi etmədən durub çığır-bağır salacaqlar və Donald Trampı belə "fakt" qarşısında qoyacaqlar ki, "baxın, biz sülh müqaviləsinə hazırıq, amma Azərbaycan qəbuledilməz şərtlər irəli sürür".

Belə görünür ki, biz ənənəvi erməni hiyləgərliyi ilə yenə üz-üzə qalacayıq. Çünki hazırkı erməni hakimiyyəti və onun komandası real sülhə hazır görünmür, əksinə təxribat yolu tutublar".

# "Böyük idman tədbirləri ölkənin beynəlxalq turizm imicini gücləndirir"

"Böyük idman tədbirlərinin keçirilməsi təkcə idman sahəsinin deyil, həm də ölkənin turizm sektorunun inkişafı üçün güclü stimul rolunu oynayır. Bu cür tədbirlər ölkəni beynəlxalq mediada gündəmə gətirir, infrastrukturun yenilənməsini sürətləndirir və qısamüddətli dövrdə turist axınını xeyli artırır". Bu sözləri SİA-ya açıqlamasında turizm eksperti Əziz Şiriyev deyib.



Onun sözlərinə görə, "Formula 1", Avropa Oyunları, UEFA Avropa Liqasının finalı kimi tədbirlər zamanı Azərbaycana minlərlə xarici qonaq gəlir. Bu, hotellərin doluluq səviyyəsini artırır, restoran, nəqliyyat, əyləncə və xidmət sektorlarında gəlirləri yüksəldir. Qısası, belə tədbirlər bir neçə ayda turizm dövriyyəsinə milyonlarla manat əlavə gəlir gətirir: "Bu prosesin ən mühüm tərəflərindən biri ölkənin beynəlxalq tanıtımıdır. "İdman tədbiri bitəndən sonra da onun yaratdığı media effekti davam edir. Xarici turistlər burada qazandıqları təcrübəni sosial mediada paylaşır, bu da Azərbaycanı potensial səyahət istiqaməti kimi təqdim edir. Belə tədbirlərin turizmə real və davamlı təsir göstərə bilməsi üçün hökumət və özəl sektor arasında koordinasiyalı fəaliyyət vacibdir. Sadəcə tədbir keçirməklə kifayətlənmək olmaz. Əsas məqsəd bu qonaqları sonradan da cəlb edə biləcək turizm məhsulları və xidmət keyfiyyətini qorumaqdır. İnfrastruktur, mədəni tədbirlər, xidmət səviyyəsi və təhlükəsizlik faktorları eyni səviyyədə inkişaf etməlidir. Belə tədbirlər yerli əhalinin turizm şüurunu formalaşdırmaq baxımından da önəmlidir. Yerli icmalar qonaqpərvərlik və xidmət mədəniyyətini daha çox mənimsəyir, bu da ölkənin uzunmüddətli turizm brendinə müsbət təsir göstərir".

***Ziya Hikmətoğlu***

# 13 228 uşaq bir o qədər də qadın-ana deməkdir...

***Müqəddiməsiz kitab qəribə göründüyü kimi, nikahsız ailə də bu qəribəliyin yaşanmaması üçün olmamalıdır. Çünki nikah ailə kitabının müqəddiməsidir.***

Əlimizə aldığımız bir kitabın nədən bəhs etdiyini onun müqəddiməsindən öyrəniriksə, bəzən zövqümüzə uyğun olmadıqda bir kənara qoyur, başqa bir kitab axtarırıqsa, ailə qurarkən də nikahaqədərki dövr ailə kitabının qısa müqəddiməsini ifadə edir. Oxumaq istəyirsənmi bu kitabı? Bax, nikah o müqəddiməni tamamlayır. Ələ alınan kitabın sonadək oxunmasına stimul yaradır. Nikah əsrlərdən bəri xalqımızın böyük dəyər verdiyi, təntənəli şəkildə qeyd etdiyi mərasim olub. Bunun müəyyən səbəbləri var. O səbəblərdən birincisi xalqımızın möhtəşəm ailə dəyərlərinin olmasıdır. Bu dəyərlər əsrlərin süzgəcindən süzülərək formalaşıb. Formalaşdıqca da müqəddəsləşib. Biz ailəni hər zaman müqəddəs hesab etmişik. Onun qurulmasını həyatımızın bənzərsiz anı bilmişik. Valideynlərimiz əsrlər boyu övladının toyunu görməyi həyatının ən gözəl anı, hadisəsi hesab edib. Bütün bu gözəlliklərin açarı isə nikahdır.

İkinci bir tərəfdən isə nikaha daxil olmağı, ailə qurmağı xalqımız vacib bir əməl kimi qəbul edib. Və bu, bütün ailələrdə təlqin olunub. O dərəcəyə çatdırılıb ki, mərhələli şəkildə həyata keçirilən, vaxtı çatanda vacib sayılan məsələlərdən biri olub. Xalqın folklorunda, yazılı və şifahi ədəbiyyatında ailə dəyərlərimizi özündə əks etdirən çoxsaylı məqamlar var. Ta qədimdən nikah günü evlərimizdə təntənəli şəkildə qeyd olunub. Bunun üçün analarımız süfrə açıb, üzərinə min bir adda, ləzzətdə şirniyyatlar düzüb, yeməklər hazırlayıb. Bütün yaxınların, rəfiqə və dostların iştirak etdiyi nikah mərasimi süfrə başında deyib-gülməklə, subaylara da bu günün nəsib olması diləyi ilə xatirələrə köçüb. Nikahlanmağımızı təsdiq edən sənəd evlərimizin ən yuxarı hissəsində, etibarlı bir yerdə saxlanıb. Hər zaman qorunub. Bütün bunlar isə yenə də ailəyə verdiyimiz dəyərdən, iki gəncin rəsmi şəkildə bir araya gəlməsinə müqəddəs yanaşmağımızdan qaynaqlanıb. Hər il nikah gününün qeyd olunması, bu münasibətlə evlilərin bir-birinə hədiyyələr bağışlaması bu müqəddəsliyin göstəricisidirsə, ailələrimizdə "Gümüş", "Qızıl", "Brilyant" toyların qeyd edilməsi isə xalqın nikaha verdiyi dəyərin bariz nümunəsidir.



## Ailə qayğı, sevgi, məhəbbətlə dolu bir evdir

Yeni qurulan ailə ilk bahara bənzəyir. Torpaq altından yavaş-yavaş pöhrə verən və gələcəyin barı-bərəkəti olacaq taxıl zəmilərinə, fidanları yenicə əkilən, lakin qarşıda dünyaya ətir saçacaq gül plantasiyalarına bənzəyir. Ailənin ilk baharında iki gənc ev qurmağa, qoca nənələrimiz demişkən, yurd-yuva sahibi olmağa can atır. Ata-analar gənc ailənin qayğıları ilə yaşayır, onların da ev-eşik sahibi olmaları üçün çalışırlar. Bir azdan baharın ən gözəl çağı-min bir rəngli çiçəklərin təbiətə səpildiyi, hər yerə ətrini saçdığı dövrü başlayır ailənin. Dünyaya körpə gəlir. Dünənədək iki gəncin sevgisi ilə dolan mənzilə yeni nəfəs qatılır. Ev-eşik, divarlar körpə qoxusu verir. Bu qoxu iki gənci valideyn edir, çiyinlərinə böyük bir məsuliyyət qoyur. Övladlarını alırlar qucaqlarına. Dünyanın ən gözəl sevgisi olan övlad sevgisi nə qucağa sığır, nə mənzillərin otaqlarına... Bu sevgi bir ovuc boyda olan, lakin nələr-nələr sığdıra bildiyimiz ürəyimizə sığır. Ata-ana olur insan. Elə bu zaman da ata-ana qədrini bilməyə başlayır. Yuxusuz gecələr, qayğılı gündüzlər anamızı andırır bizə. "Bir ailəm var, məsuliyyəti tam mənim üzərimdədir" hissi atamızı xatırladır bizə. Sanki baba-nənələrimizin "ata-ana olmayan bilməz valideyn qədrini" deyimini də məhz bu zaman dərk edirik...

Oğul, qız, fərqi yoxdur, doldurur evimizi sevinclə, xoşbəxtliklə... Qayğılı günlər başlayır ailədə. Nə qədər gözəl günlərdir bu qayğılı günlər İnsanın həyatını maraqlı edən, ömrünü mənalandıran günlərdir övlad qayğısı çəkmək. Onun böyüməsini izləmək, balam bu gün bir addım atdı, bir kəlmə söz söylədi, bir şeir dedi, birinci sinfə getdi, əla qiymət aldı, idmanda uğur qazandı, olimpiada qalibi oldu, universitetə daxil oldu, əsgər getdi, ailə qurdu kimi sevinclərini yaşamaqla bərabər, xəstələnəndə qayğısını çəkmək, "niyə yemədi, niyə yaxşı oxumadı, niyə yoldaşlarından geri qaldı", - deyə narahatlıq keçirmək də gözəldir. Axı bu, bir ailədə yaşananlardır. Yaxşılar da, yaxşı olmayanlar da bizimdir. Yaxşını lap yaxşı, yaxşı olmayanı yaxşı səviyyəsinə gətirməkdir valideynlik vəzifəsi, məsuliyyəti. Ailəni də ailə edən bu hisslərdir. Ailə evdir, qayğılarla, sevgilərlə, məhəbbətlə dolu bir ev




## Nikahsız ev xarabadır

Nikahda məsumiyyət, paklıq, həm də bərəkət var. Nikah öz rəsmiliyi ilə paklıq gətirir bu bağlantıya. Nikah həm də bərəkətdir. Bərəkəti verən Ulu Yaradan olduğu üçün onun təlqin etdiyi nikaha daxil olanların da evlərinə bərəkət yağır göydən.

"Qurani-Kərim"də kəbinsiz, yəni nikahsız bir yerdə yaşamaq günah hesab edilir. Həm də cəzası ağır olan günah. Müasir dövrümüzdə kəbin kəsdirməklə bir yerdə yaşamağa başlayanlar belə hesab edir ki, bununla iş bitmiş hesab olunur, yəni onlar ta heç bir günahın sahibi deyil. Bu cür də yaşamaq mümkündür, çünki müqəddəs kitabda yazılanlara əməl edirlər. Lakin bu, belə deyil. Elə "Qurani-Kərim" də bu sözlərlə nikahı nəzərdə tutur. Əsrlər öncə bu iş yalnız dini formada həyata keçirilirdisə, lakin sonralar rəsmi şəkildə də olması vacib hesab edilibsə, biz onların hər ikisinə riayət etməklə, düzgün nikaha girə bilərik. Birtərəfli-yəni kəbinlə qurulan ailə ailə deyil. Onların yaşadığı ev də abad ola bilməz, bir xarabalığa bənzəyir. Çünki qanunlar xaricində qurulur o ailələr.

Valideynlərin xeyir-duası olmayan yerdə ailədən söhbət gedə bilməz. Kimin harada kiminlə istəyirsə bir araya gəlib yaşaması bizim ailə dəyərlərinə, milli kaloritimizə uyğun deyil. Belə ailələrdə nə din, nə də bərəkət ola bilər. Dəfələrlə müşahidə etdiyimiz hadisələr yığnağıdır nigkahsız evlər. Problemlərin, bitib-tükənməyən, həlli olmayan məsələlərin ünvanıdır bu evlər. Sadəcə iki insanın hissləri daxilində, lakin düşüncəsi xaricində bir araya gəlməsidir. Buna nə ailə demək olar, nə də onların yaşadıqları yerə ev. Çünki ailə, ev məfhumları özündə yalnız bir tərəfi qədim dövrlərə söykənən dəyərləri, qayda-qanunları ehtiva edir. Belə ailələrdə doğulan uşaqlar da həm ata, həm də ananın günahı kimi dünyaya gəlir. Çünki nikah olmayan yerdə ər-arvadın izdivacı haram olduğu kimi, onlardan dünyaya gələn uşaq da haramdır.

## Avropa qapımızdan girdi, girmədi...

Bizim bədbəxtliyimiz o zaman başladı ki, Avropaya evlərimizin qapısını açdıq. Bu qapılardan Avropaya məxsus olanlar girdikcə bizim olanları unutdurdu. Danışığımız, saçımız, geyimimiz dəyişdi. Dilimizə yeni sözlər əlavə etdik. Saçımıza yeni rənglər qatdıq. Geyimlərimiz dizləri çırıq- çırıq şalvarlara, ətəklərimiz dizdən iki qarış yuxarı, qolları ikicə qatmadan ibarət olan geyimlərə çevrildi. Parkda, nəqliyyatda ayaqlarımızı bir-birinin üstünə aşırdıq, utanmadıq, müasir hesab etdik, hansı ki, vaxtilə evlərimizdə böyüklərimizin yanında oturmaq belə qəbahət idi. Küçədə-bacada ucadan danışıb-gülməyə başladıq, nə olsun ki, müasir dünyadır, dedik. Hansı ki, bizə verilən tərbiyədə bundan qəbahətlisi yox idi. Bir-birimizlə əl-qol zarafatlarına başladıq, kənardan baxanlara məhəl qoymadan. İctimai yerlərdə ağzımıza saqqız atıb çeynəməyə başladıq. Hansı ki, bu, mədəniyyətsizlikdir deyə, bizə tərbiyə verilmişdi. Axşam evə gec gəldik, səhər tez çıxdıq, hansı ki, illər öncənin ailə sistemində bunlar qətiyyən yolverilməz idi.

Beləliklə, ailə qurmağa da özümüz qərar verdik. Əşi, Avropada heç rəsmi nikaha girənlər yoxdur, vətəndaş nikahı ilə yaşayır camaat. Bizdə niyə olmasın ki, dedik. Unutduq keçmişimizi, ailə dəyərlərimizi. Bəli, bu deyilənlərin mərkəzində gənclik dayanır. Lakin gəlin, biz orta nəslin nümayəndələri heç də özümüzü kənara çəkməyək. Çünki bütün bunların səbəbkarları elə bizik, övladlarımız deyil. Biz bacarmadıq. Qapılarımızı möhkəm kilidləyib Avropanı içəriyə biz buraxmalı deyildik. Övladlarımızın hər hərəkətini diqqətdə saxlamalı idik. Danışığına, geyiminə, özünü küçədə aparmasına biz nəzarətçi olmalı idik. Bizim səhvlərimizdir bunlar. Boşluğu biz yaratdıq. Bundan istifadə edənlər isə qazandılar. İndi övladlarımız avropasayağı "ailə" qurur. Acısını kim yaşayır, biz. Çünki nikahsız ailə ilk gündən problemli ailədir. Biz buna hazır olmalıyıq. Hazır olmalıyıq ki, qarşıda başımıza gələnlərə sinə gərək.

## Qorxunc statistika

Gəlin statistikaya nəzər salaq. Nikahsız qadınların dünyaya gətirdiyi uşaqların sayı 2019-cu ildə 21 453, 2018-ci ildə 20 716, 2017-ci ildə 22 796, 2016-cı ildə 26 288, 2015-ci ildə 24 038, 2014-cü ildə 25 486 olub. 2014-cü ildə nikahsız qadınlar tərəfindən doğulan uşaqların 9772 nəfəri şəhər, 15 714 nəfəri kənd, 2015-ci ildə 9 411 nəfəri şəhər, 14 627 nəfəri kənd, 2016-cı ildə 9 592 nəfəri şəhər, 16 696 nəfəri kənd, 2017-ci ildə 8167 nəfəri şəhər, 14 629 nəfəri kənd yerlərinin payına düşüb. 2018-ci ildə belə qadınlar şəhər yerlərində 7 509, kənd yerlərində 13 207 uşaq, 2019-cu ildə şəhər yerlərində 7790, kənd yerlərində 13 663, 2020-ci ildə şəhər yerlərində 6667 uşaq, kənd yerlərində 11 047 uşaq dünyaya gətirib.

2021-ci ildə 17 566, 2022-ci ildə isə 18 814 uşaq nikahdankənar doğulub.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2023-cü ildə ölkə üzrə nikahdankənar doğulan uşaqların sayı 15 622 nəfər idisə, 2024-cü ildə bu rəqəm 13 228 nəfər təşkil etmişdir. Bu təhlil nikah münasibətlərinə yanaşmada müsbət tendensiyanın formalaşdığını göstərir. Qeyd edək ki, sözügedən statistikaya 18 yaşadək olan analar tərəfindən dünyaya gətirilən uşaqlar da daxildir. Azərbaycan Respublikası üzrə nikahdankənar evlilikdən dünyaya gələn uşaqların və boşanmalar uşaqların valideyn himayəsindən məhrum olmasına öz təsirini göstərir.

Azalma müşahidə olunsa da, bu rəqəmlər adamın canına yenə də üşütmə salır. Nikahsız yaşayanlar haqqında çox eşidirik, onların dünyaya gətirdikləri uşaqların necə çətinliklə üz-üzə qaldığını bilirik, həmin qadınların evlərdən qovulmasının dəfələrlə şahidi olmuşuq. Heç bir mülkdə hüququ olmaması barədə dəfələrlə eşitmişik. Lakin bu rəqəmləri belə bir arada görmək daha dəhşətlidir.

Müqayisə edərkən bir nüans da diqqətimdən kənarda qalmadı. Nigahdankənar doğulan uşaqların sayı yuxarıda göstərilən illərin hər birində kənd yerlərində daha artıq olmuşdur. Bu isə daha böyük faciə deməkdir. Çünki ailə dəyərlərimiz, adət-ənənələrimiz həmişə şəhərlərdən çox, kənd yerlərində qorunub saxlanılıb. Lakin bu rəqəmlər Avropanın şəhərlərimizdən sürətlə ötüb kəndlərimizdə dayanmasını sübut edir.

## 13 228 uşaq bir o qədər də qadın-ana deməkdir

2024-cü ildə isə ölkədə rəsmi qeydə alınmamış nikahda olan qadınlar 13 228 uşaq dünyaya gətirib. Bu həm də 13 228 uşaqla yanaşı, bir o qədər qadın deməkdir. Dünyaya gətirdikləri uşaqlarla birlikdə həyatın çətinliklər girdabına atılan qadınlar. Onların sabahı necə olacaq? Övladlarına atalarının soyadını verə biləcəklərmi? Sevib inandıqları insanlarla başladıqları yolu sona qədər addımlaya biləcəklərmi? Sadah bir problem yarananda, həyat yoldaşları onların arxasında olacaqmı? Əgər ayrılmalı olsalar, bir ev tapıb övladları ilə orada yaşaya biləcəklərmi? Axı qanunvericilik mülklə bağlı nikahlı evliliklərlə müqayisədə nikahsız evliliklər üçün ayrı söz deyir. Bu məsələ ilə bağlı həyacan təbili onsuz da illərdir, çalınır. Lakin düşünürəm ki, indi bu təbili ara vermədən, yorulmadan, gecə-gündüz çalmalıyıq. Çünki statistik rəqəmlər çox qorxuncdur. Fikir versək, son illərin statistikasında nikahsız bir araya gələnlərin sayı əvvəlki illərlə müqayisədə azalıb. Bu da ölkəmizdə nikah yaşının 18 olaraq müəyyənləşməsidir. Lakin bunun da qarşısında 13 mindən artıq nikahdankənar uşağın doğulması faciəvi rəqəmdir. Bu səbəbdən də oyanmalıyıq. Gözümüzü yumub görə bilmədiyimiz, sadəcə kəbinlə ailə quran övladlarımızın gələcəyi naminə oyanmalıyıq. Ətrafımızda bu cür evliliyə yol verənləri tənbeh etməliyik. İmkanınız daxilində belə evlilikdən insanları çəkindirməliyik. Əlimizdən gələni etməliyik.

## Evimizdən nikahsız qız çıxarmayaq

Sadəcə dörd hərf - ailə... İki nəfərin nikahda bir-birinə uzun bir yolçuluqda yolyoldaşı olmağa söz verdiyi an "doğulur" ailə. İlk cümləsi "xoşbəxt olun"la başlayan, lakin qarşıda hələ ömrün düz dörd fəslindən bəhs edəcək kitabın yazılmasını bir imza ilə gerçəkləşdirənlər gətirir bu ailəni dünyaya. Bir-birinə ömür-gün yoldaşı olmaq istəyənlərin bir qələmlə yazdıqları ailə kitabı, ömür kitabı... Dörd fəsilli bu kitabı vərəqləyərkən öncə təbiətlə insanın vəhdəti gəlir gözlər önünə. İnsanmı təbiəti, təbiətmi insanı yaratmış? Bu, təbii ki, hələ bir sirr olaraq qalmaqdadır. Lakin bu iki varlığın oxşarlığıdır insanı düşündürən. Nə qədər bənzərdir təbiətlə insan... Uşaqlıq ilk bahar, gənclik bahar-yay, orta yaş payız, qocalıq qışdır. Hələ insan kimi uzunömürlü ola bilən ailələr də təbiətə, onun dörd fəslinə bənzərdir. Evlərimizdən qızlarımızın heç bir halda nikahsız çıxmasına icazə verməyək. Verməyək ki, yuxarıda təsvirini verdiyimiz ailənin dəyərini, gözəlliyini uzun illər həyat yoldaşları, övladları ilə birlikdə yaşaya bilsinlər. Nənə-baba ola bilsinlər. Nikah günlərini "Gümüş", "Qızıl", "Brilyant" toylarda qeyd edə bilsinlər.

Evlərimizdən nikahsız qız çıxarmayaq!

***Mətanət Məmmədova***

# Zəngəzur dəhlizinin açılması bölgənin inkişafını dəyişəcək








Böyük şəxsiyyətlər öz əməlləri və fəaliyyətləri ilə tarix yaradırlar. Hansı ki, xeyirli, gərəkli fəaliyyəti ilə tarix yaradan böyük şəxsiyyətlərin amalları, yüksək ideyaları, uzaqgörən siyasəti xalqa xoşbəxtlik, dövlətə ucalıq gətirir. Azərbaycanın böyük Öndəri Heydər Əliyevin əsasını qoyduğu siyasət və bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə beynəlxalq aləmdə Azərbaycan dövlətinin adı hörmətlə çəkilir, millətimizin nümayəndələrinə rəğbət göstərilir. Vətən Müharibəsi ilə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması ilə Azərbaycanın dünya müqyasında rolu və yeri möhkəmləndi, nüfuzu daha da artdı. Üçrəngli bayrağımızın Qarabağda, Şərqi Zəngəzurda yenidən dalğalanması Azərbaycanı qalib ölkə, xalqımızı isə qalib xalq kimi dillər əzbərinə, tarixdə heç zaman unudulmayacaq salnaməyə çevirdi. Bu Qələbənin baş memarı isə heç şübhəsiz Yenilməz Sərkərdə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevdir. Məhz Prezident İlham Əliyevin apardığı müdrik siyasəti və böyük sərkərdəlik məharəti nəticəsində Qarabağın işğaldan azad edilməsi ilə tarixi zəfərə imza atıldı. Bununla da Yenilməz Sərkərdə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı.

Ölkəmizin illər ərzində keçdiyi yola nəzər salsaq, Azərbaycan iqtisadiyyatının davamlı və dinamik inkişaf etdiyini görərik. Bu illər ərzində regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqları nəzərə alınmaqla həyata keçirilib. Ulu Öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı üzərində qurulan siyasət nəticəsində ötən illər ərzində misilsiz uğurlara imza atılıb. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycanın qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi misilsiz layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsi ilə bağlı işlər yekunlaşmaq üzrədir. Həmçinin "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadılıb. Eyni zamanda, dövlətimizin başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib.

Uğurların təməlində əsaslı siyasət dayanır

Bugünkü uğurlar, qələbələr onu deməyə əsas verir ki, Azərbaycan xalqı 2003-cü il prezident seçkilərində Ulu Öndər Heydər Əliyev siyasətini davam etdirilməsi üçün Cənab İlham Əliyevin Prezident seçilməsinə səs verməklə müdrik qərar verib. Bunu Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibəsində qeyd edir ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi: "Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni, Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalar, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk iki ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi. Hesab edirəm ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik, çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993-2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi".

Yenilməz Sərkərdə, Prezident İlham Əliyev 44 günlük Vətən Müharibəsindən sonra yaranan mövcud vəziyyət barədə qeyd edib ki, biz 10 noyabr üçtərəfli Bəyanatı imzalanandan sonra, əlbəttə ki, gələcək addımlarımızla bağlı ciddi düşünməli idik: "Çünki 10 noyabr hadisəsi də bir dövr idi və müharibə nə ilə nəticələnəcək, noyabrın 8-də mən tam deyə bilməzdim, yəni, tam əminliklə deyə bilməzdim. Əlbəttə, mən bilirdim ki, bizim Zəfərimizlə nəticələnəcək, amma necə və nə vaxt, noyabrın 8-də demək mümkün deyildi. Çünki noyabrın 8-də təbii ki, çox böyük hadisə baş verdi - Şuşa işğaldan azad edildi və faktiki olaraq separatçıların müqaviməti, belə deyək, strateji nöqteyi-nəzərdən mənasız olmuşdu. Əlbəttə, əgər müharibə davam etsəydi, Kəlbəcər və Laçın rayonlarını özü də artıq qış mövsümündə azad etmək çox çətin olardı. Halbuki biz bunu da edəcəkdik. Amma itkilərimiz həddindən artıq çox ola bilərdi, hətta 44 günlük müharibədə verdiyimiz şəhidlərin sayından qat-qat çox ola bilərdi. Biz hamımız bunu yaxşı bilirdik, çünki indi də oralara gedən, o bölgələrə gedən hər bir insan görür ki, nə dərəcədə çətin relyefdə yerləşən bir ərazidir. Ancaq əgər Ermənistan kapitulyasiya aktına imza atmasaydı biz, əlbəttə ki, müharibəni davam etdirəcəkdik son nöqtəyə qədər.Ona görə 8 noyabrdan sonra - ertəsi gün bütövlükdə səhərdən axşama qədər, gecəyə qədər Rusiya Prezidenti vasitəsilə Azərbaycan, Ermənistan danışıqlarına həsr edilmişdir. Üçtərəfli Bəyanatın qəbul edilməsi, o şərtlərlə qəbul edilməsi, hesab edirəm ki, bizim böyük siyasi uğurumuzdur. Əlbəttə, əgər Şuşa işğaldan azad olunmasaydı, o şərtləri biz o Bəyanata saldıra bilməzdik. Yəni, bizim Qələbəmiz, güclü olmağımız imkan verdi ki, biz hətta bu məsələyə aid olmayan şərtləri də oraya saldıraq, xüsusilə Zəngəzur dəhlizi ilə bağlı. Ancaq hər halda 10 noyabrdan sonra müəyyən bir vakuum yarandı. Heç kim bilmirdi bundan sonra nə olacaq? O vaxt hələ meydanda olan Minsk qrupunun həmsədrləri də demək olar ki, özləri də bilmirdilər nə ilə məşğul olacaqlar və bəzi səfərlər də oldu. Ermənistandakı vəziyyət təbii ki, birmənalı idi. Azərbaycanda xalq sevinc içində idi. Ancaq mən bilirdim ki, bu, işin sonu deyil. Çünki bir çox tamamlanmamış məsələ var və o məsələlərə aydınlıq gətirilməlidir, ilk növbədə, ovaxtkı Laçın dəhlizi ilə bağlı olan məsələ".

Zəngəzur dəhlizinin açılması istiqamətdə işlər görülür

Əminliklə demək olar ki, Zəngəzur dəhlizinin açılması Azərbaycana yeni uğurlar, zəfərlər gətirəcək. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın Qərb rayonları arasında əlaqələr qurulacaq, Muxtar Respublika blokadadan çıxacaq, Avropa ilə Asiya arasında iqtisadi əlaqələr möhkəmlənəcək, tranzit yük daşınmaların həcmi artacaq. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Zəngəzur dəhlizi Azərbaycanın milli maraqlarının tərkib hissəsidir və regionda əməkdaşlığa yol açır. Bu da onu təsdiq edir ki, Qarabağ Fatehi, Prezident İlham Əliyev Azərbaycanın hər bir marağının və mənafeyinin qorunmasında və təmin olunmasında qərarlıdır. Prezident İlham Əliyev Zəngəzur dəhlizinin açılması məsələsindən danışarkən demişdir: "Zəngəzur dəhlizinin açılması qaçılmazdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Hər halda biz bu istiqamətdə səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcək".

Bir sözlə, Zəngəzur dəhlizi regionda iqtisadi, sosial inkişafa yeni və davamlı töhfələr vermiş olacaq. Həm də Azərbaycanla Ermənistan arasında imzalanması nəzərdə tutulan sülh müqaviləsinin möhkəm və daimi olmasına zəmin yaradacaq. Qazanan heç şübhəsiz ki, xalqlar olacaq. İnsanların sosial-iqtisadi vəziyyəti, bir nöqtədən, başqa bir nöqtəyə sərbəst hərəkət etmələrinə imkanlar yaranacaq. Bu reallıqları və gözlənilən nəticələri Ermənistan nə qədər tez anlasa, bir o qədər yaxşı olar. Əks halda Ermənistan arzu etmədiyi fəlakətlərlə üzləşə bilər.

**İLHAM ƏLİYEV**



Lalə Mehralı

## Hələ 300 il dözün, qızlar!

***Təhsil əsas hüquq və sosial məsuliyyətdir. YUNESKO-nun məlumatlarına görə, dünyada 262 milyon uşaq hələ də məktəbə getmir, 617 milyon uşaq və böyük savadsızdır, 4 milyon qaçqın isə məktəb hüquqlarından məhrumdur. Bu insanlar təhsil almaq hüququndan məhrum edilib və bu vəziyyət qəbuledilməzdir. UNESKO bütün hökumət və təşkilatlardan keyfiyyətli təhsil vermək üçün səfərbər olmağı tələb edir.***

Dünyada təhsildən yayındırılan, məktəbə göndərilməyən qızların sayı çoxdur və onların aqibəti bəllidir - ya nikah, ya istismar. Uşaq nikahlarının ən çox qeyd alındığı bölgənin Cənubi Asiya olduğu bildirilir. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) hazırkı məlumatlarına görə dünyada uşaq yaşda evlənən 640 milyon qadının 45 faizi bu bölgədə yaşayır. Hindistan isə uşaq nikahlarının ən çox baş verdiyi ölkələr arasında birinci yerdədir. UNİSEF dünyada uşaq nikahlarının sayının azaldığını, lakin bu azalmanın arzuolunan səviyyədə olmadığını deyir və hesab edir ki, dünyada uşaq nikahlarının tamamilə aradan qaldırılması üçün daha 300 il gözləmək lazım gələcək.

UNİSEF-in son hesabatına görə hər il 18 yaşına çatmamış 12 milyon uşaq və yeniyetmə qız gəlin olur. Bununla belə, yeni məlumatlar göstərir ki, son 25 ildə uşaq nikahlarının sayı azalıb. 1997-ci ildə 20-24 yaş arası gənc qadınların 25 faizinin 18 yaşından əvvəl evləndiyi bildirilirdi, bu nisbət 2012-ci ildə 23 faizə, 2022-ci ildə isə 19 faizə enib. Hesabatda bildirilir ki, bu tendensiya davam edərsə, 2023-cü ilə qədər uşaq gəlinlərin sayının 9 milyona qədər azalacağı, eyni zamanda təhsilə yönəldilən qızların sayının artacağı ehtimal edilir.

UNICEF uşaq nikahlarının aradan qaldırılmasında nisbi irəliləyişin əldə edildiyini qeyd edərək, bununla belə, Covid-19 pandemiyasının, qlobal münaqişələrin və iqlim dəyişikliyinin artan təsirlərinin bu sahədə çətin qazanılmış nailiyyətləri təhlükəyə ata biləcəyini də ifadə edib. Hesabata görə, təkcə Covid-19 epidemiyasının yaratdığı təsirlərin 2020-2030-cu illər arasında 10 milyona yaxın uşaq nikahına səbəb olacağı, dolayısı ilə bu qədər qız uşağının təhsildən yayındırılacağı gözlənilir. Güclü qızlar, güclü gələcək deməkdir. Qızlarınıza ağılları, bilikləri, zəkaları və şəxsiyyətləri ilə var olmağı öyrədin. Arzularını həyata keçirən təhsilli, qərarlı, zəkalı qızlarla dünya daha da gözəlləşəcək. Ölkəmizdə qızların təhsilinə, ziyasına olan diqqət bir çox müsəlman ölkəsində yoxdur. Bizim üçün normal olan haqlar başqa bir ölkədə qızların ancaq arzusu, xəyalıdır.

Oxuyun, qızlar! Mütləq oxuyun. Sizi gözləyən, önünüzə çıxan, ayağınıza dolaşan bütün əngəlləri aşın və oxuyun. Əmin olun, bütün dünyada qızların bərabər təhsil ala bildikləri, ayrı-seçkiliyə məruz qalmadıqları və həyatları boyu öz qərarlarını verə bildikləri bir gələcək gələcək. Mütləq gələcək!

# Mərkəzi Asiyada kəsişən maraqlar

## Rusiya və Avropa İttifaqı region uğrunda amansız savaşa başlayıblar

***Mərkəzi Asiyada əsas enerji layihəsi - Kambarata-1 Su Elektrik Stansiyasının tikintisi güclü beynəlxalq dəstək alıb. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və Avropa İnvestisiya Bankı (AİB) Brüsseldə memorandum imzalamaqla SES-in maliyyələşməsində iştiraklarını rəsmi şəkildə təmin ediblər. Maliyyə institutları layihəyə 2,4 milyard dollar sərmayə qoymağı öhdələrinə götürüblər. Razılaşma Avropanın maliyyə nəhənglərini Qazaxıstan, Qırğızıstan və Özbəkistanın energetika nazirlikləri ilə bir araya gətirən genişmiqyaslı Qlobal Gateway forumunda əldə olunub.***

Brüsseldə keçirilən Qlobal Gateway forumu tərəfdaşlığın gücləndirilməsinə və davamlı qlobal infrastrukturun inkişafına həsr olunub. Avropa Komissiyasının sədri Ursula von der Leyen tərəfindən açılan konfrans enerji, nəqliyyat, rəqəmsal gündəm və sənaye rəqabətliliyi kimi kritik mövzulara diqqət yetirib. Mərkəzi Asiyanın hidroenergetika potensialının genişləndirilməsi və nəqliyyat əlaqələrinin inkişafı perspektivlərini əks etdirən flaqman "Qlobal Gateway" təşəbbüsünə xüsusi diqqət yetirilib.

AİB və AYİB kimi beynəlxalq banklar vasitəsilə regionun enerji layihələrinə aydın şəkildə diqqət yetirməklə investisiyaların artırılması bu tədbirin əsas nəticələrindən biri idi və bu tədbirin beynəlxalq tərəfdaşlıq üzrə Avropa komissarı Jozef Sikelanın fəal Mərkəzi Asiya turu ilə əvvəlcədən müəyyənləşdirilmişdir.

Potensial layihələr arasında Qırğızıstanın Narın çayı üzərində yerləşən Kambarata-1 Su Elektrik Stansiyası (SES) Aİ maliyyə institutlarından ən əhəmiyyətli dəstəyi alıb. Stansiyanın layihə gücü 1860 MVt, anbarı 5,4 milyard kubmetr, bəndin hündürlüyü 256 metrə yüksələcək və ildə orta hesabla 5,6 milyard kilovatsaat elektrik enerjisi istehsal olunacaq. Onun tikintisinin təxminən 10 il çəkəcəyi planlaşdırılır. Ümumi dəyəri 5-6 milyard dollar təşkil edən layihə Qırğızıstanın (müştərək müəssisədə payı 34%), Qazaxıstanın (33%) və Özbəkistanın (33%) səylərini birləşdirərək regional layihəyə çevrilib. Bu əməkdaşlığın əsasları 2023-cü ilin yanvarında yol xəritəsi, ardınca isə 2024-cü ildə hazırlıq və istismara dair üçtərəfli sazişlə qoyulub. Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər beynəlxalq tərəfdaşlar daxil olmaqla, maliyyələşdirməni əlaqələndirmək üçün donor komitəsi yaradılıb. Birinci su elektrik aqreqatının işlərin əsas mərhələsinin başlanmasından dörd il sonra istismara verilməsi planlaşdırılır.

Qeyd etmək vacibdir ki, geniş beynəlxalq iştiraka baxmayaraq, layihə başa çatdıqdan sonra zavodun bütün aktivləri və səhmləri Bişkekin mülkiyyətinə keçəcək. İştirakçıların səhmləri bu strateji əhəmiyyətli obyekt üzərində suverenliyə təminat verən, ötürülə və ya satıla bilməz. Nəticədə, Qırğızıstanın energetika naziri Taalaibek Ibrayevin verdiyi məlumata görə, Kambarata-1 SES layihəsi ilə bağlı iki anlaşma memorandumu imzalanıb: biri AYB-nin baş direktoru Endryu Makdauell ilə 500 milyon dollara, digəri isə AYİB prezidenti Odil Renaud-Bassonun iştirakı ilə regional direktoru Hüseyn Özhan ilə əlavə 50 milyon dollara. Qırğızıstan, Özbəkistan və Qazaxıstan üçün Avropa maliyyələşdirməsinin ümumi həcmi 2,4 milyard dollara çatacaq.

Jozef Sikela yeni sazişləri alqışlayıb: "Sidroenergetikaya ağıllı investisiyalar elektrik enerjisinə etibarlı çıxışı təmin edə, yerli icmalar üçün gəlir əldə edə, dayanıqlı kənd təsərrüfatını təşviq edə və insan sağlamlığını və ətraf mühiti qoruya bilər. Biz Mərkəzi Asiyada əsas enerji istehsalı obyekti olan Kambarata-1 SES-in gələcəkdə həyata keçirilməsini dəstəkləməkdən qürur duyuruq. Bizim yeni investisiyamız Aİ və region ölkələri arasında strateji tərəfdaşlığı gücləndirir".

EIB-nin Mərkəzi Asiya üzrə vitse-prezidenti Kiriakos Kakouris isə qeyd edib ki, Avropa Komissiyasının təminatları sayəsində AİB iqlim bankı olaraq Mərkəzi Asiyada regional enerji əməkdaşlığını gücləndirən infrastruktur dəstəkləyir: "Biz Kambarata-1 SES layihəsinin potensialını bərpa olunan enerji ticarətinin genişləndirilməsində, iqtisadi inkişafın stimullaşdırılmasında və enerji təhlükəsizliyinin gücləndirilməsində əsas element kimi görürük".




Eyni zamanda Qırğızıstanda Böyük Britaniyanın "United Concrete Canvas" şirkəti tərəfindən dünyada ikinci zavodun tikintisinə başlanıldığı açıqlanıb. Bu zavod Kambarata-1 SES bəndinin tikintisində istifadə oluna bilən innovativ beton kətan istehsal edəcək. Təməl daşının qoyulma mərasimində iştirak edən Böyük Britaniya səfiri Nikolas Bouler vurğulamışdır ki, "bu layihə Böyük Britaniya və Qırğızıstan dostluğunun parlaq nümunəsidir və Mərkəzi Asiyanın ürəyinə ən müasir texnologiyalar gətirir". Suvarma kanallarında səmərəli şəkildə istifadə olunan bu innovativ material su itkisini əhəmiyyətli dərəcədə azaldır və 100 ilə qədər davam edir ki, bu da quraq rayonlar üçün çox vacibdir. 2027-ci ilin əvvəlinə hazır olması gözlənilən zavod respublikanın enerji ehtiyacını özü ödəməyə və Mərkəzi Asiyaya məhsul ixrac etməyə imkan verəcək.

Qazaxıstanın naziri Erlan Akkenjenov Jozef Sikela və Genişlənmə və Qonşuluq Siyasəti üzrə komissarı Marta Kos ilə danışıqlar zamanı Qazaxıstan üçün yaşıl enerjinin inkişafının vacibliyini vurğulayıb. O, Qazaxıstanın 2060-cı ilə qədər karbon neytrallığına nail olmaq kimi strateji hədəfini təsdiqləyərək, ölkənin yaşıl keçidə praqmatik və balanslı yanaşma nümayiş etdirdiyini vurğulayıb.

Forumun sessiyasında həmçinin Tacikistanda Roqun Su Elektrik Stansiyasının layihəsi müzakirə olunub, rəsmilərin fikrincə, bu, regionun enerji təhlükəsizliyi, su ehtiyatlarından səmərəli istifadə və kənd təsərrüfatının davamlı inkişafı üçün həlledici əhəmiyyətə malikdir.

### Rusiya da hərəkətə keçir

Rusiya da Mərkəzi Asiyada iri enerji layihələrində investisiya və iştirakını artırmaq niyyətindədir. Bunu Rusiya prezidenti Vladimir Putin Düşənbədə keçirilən ikinci Mərkəzi Asiya-Rusiya Sammiti zamanı deyib. O, həmçinin vurğuladı ki, bu, "müasir Rusiya texnologiyaları"na və regionun enerji sisteminə bərpa olunan enerji mənbələrinin tətbiqinə aiddir.

Mərkəzi Asiyanın enerji ehtiyaclarının miqyası və resurs potensialı regionun həm Rusiya, həm də Avropa İttifaqı ilə səmərəli əməkdaşlıq üçün geniş imkanlara malik olduğunu göstərir. Ekspertlərin fikrincə, onların enerji sektorunun müxtəlif aspektlərinə yönəlmiş investisiyaları və təcrübələri rəqabət aparmır, lakin bir-birini tamamlaya bilər və regionun hərtərəfli və davamlı inkişafına töhfə verə bilər.

Putin Mərkəzi Asiya ölkələrini Rusiyanın sülhsevər olduğuna inandırmağa çalışır. Amma Moskva təsirini itirir, Aİ milyardlarla avro təklif edir, Çin isə güc qazanır. Bu strateji əhəmiyyətli regionda mübarizədə kim qalib gəlir?

Ukraynada genişmiqyaslı müharibə başlayandan bəri Rusiya Mərkəzi Asiyadakı sarsıntılı mövqeyini bərpa etməyə çalışır. Moskva cənub qonşuları üçün vacib tərəfdaş olaraq qaldığını nümayiş etdirməyə çalışır: bu məqsədlə Rusiya prezidenti Vladimir Putin oktyabrın 8-də Düşənbədə Mərkəzi Asiya-Rusiya sammitində Mərkəzi Asiya liderlərini Moskvanın regionda "sülh və sabitlikdə maraqlı" olduğuna inandırmağa çalışıb. Ekspertlər qeyd edirlər ki, Rusiyanın qonşu dövlətləri hələ də Ukraynaya müdaxilədən sonra onun təsirinə ehtiyatla yanaşırlar.




Avropa İttifaqı və Çin bu il Mərkəzi Asiyada öz forumlarını keçirib. Aİ Mərkəzi Asiyaya 12 milyard avroluq investisiya paketi, Çin isə dəmir yolu və hava əlaqələrinin inkişafına sərmayə qoyacağını açıqlayıb. DW-nin müsahibə verdiyi ekspertlərin fikrincə, region ölkələri əsas oyunçular arasında manevr edərək özlərini daha müstəqil qurumlar kimi təqdim etməyə çalışırlar. Onlar rəqabət sahələrini və Rusiyanın hazırda Orta Asiyada necə qəbul edildiyini izah ediblər.



## Rusiyadan uzaqlaşırlar

Mərkəzi Asiya üzrə müstəqil polşalı analitik Martin Poplawski deyir: "Son vaxtlara qədər Mərkəzi Asiya dövlətləri siyasi cəhətdən Rusiyadan, iqtisadi cəhətdən Çindən asılı hesab olunurdu. İndi əməkdaşlıq şərtlərini diktə edirlər". Poplavski qeyd edir ki, Rusiyanın 2022-ci ildə Ukraynaya genişmiqyaslı işğalı region üçün dönüş nöqtəsi oldu, baxmayaraq ki, Mərkəzi Asiya ölkələri Rusiyaya simvolik və faktiki güzəştlər etməyə davam edir. Məsələn, Tacikistan Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) Putin haqqında həbs qərarına məhəl qoymadı, baxmayaraq ki, BCM-nin Roma Nizamnaməsini ratifikasiya etmiş ölkələrdəndir.





Rusiyanın başlatdığı genişmiqyaslı müharibənin lap əvvəlində heç bir Mərkəzi Asiya dövləti Kremlə nə hərbi, nə də siyasi dəstək vermədi. Bu müharibənin birinci ili Rusiyanın bütün cənub qonşuları üçün şok oldu. Ərazi bütövlüyü prinsipi onlar üçün vacibdir, çünki bu, təhlükəsizlik məsələsidir. Lakin onlar da "işğal" və ya "təcavüz" kimi birbaşa dildən qaçmağa çalışırdılar.

## Aİ iqtisadi maqnit kimi

Mərkəzi Asiya ölkələri ilə investisiya sazişlərini açıqlayan Avropa Şurasının sədri Antonio Kosta "qaydalara əsaslanan çoxtərəfli nizam"dan danışıb. Bu formula 2022-ci ildən sonra öz suverenliyini möhkəmləndirməyə çalışan Mərkəzi Asiya ölkələri üçün xüsusilə vacibdir. Onlar Ukraynada cəbhə xəttindəki vəziyyəti diqqətlə izləyirlər və Aİ ilə Rusiya arasında "diqqətli strategiya" hazırlamağa çalışırlar, ekspert izah edir. Onun sözlərinə görə, bu ölkələr Avropa İttifaqı ilə iqtisadi əlaqələri genişləndirir, eyni zamanda Rusiyaya ona qarşı tətbiq edilən beynəlxalq sanksiyalardan yan keçməyə kömək edir.

Avropa İttifaqı Mərkəzi Asiya ölkələri üçün investisiya və ticarət baxımından son dərəcə vacibdir. Məsələn, 2023-cü ildə Aİ-nin Mərkəzi Asiya ölkələri ilə ticarətdə payı 22,6%-ə çatıb. Ekspertlər qeyd edir ki, malların əhəmiyyətli bir hissəsi Aİ-yə Rusiya vasitəsilə daxil olur. İqtisadi nöqteyi-nəzərdən Avropa İttifaqı region üçün kritik əhəmiyyət kəsb edir. Amma bu qarşılıqlı əlaqə Rusiyasız mümkün deyil, çünki Mərkəzi Asiya ilə Aİ arasında demək olar ki, bütün logistika Rusiya ərazisindən keçir. Bu arada, Aİ Orta Dəhlizin tikintisini maliyyələşdirir.

## Rusiya regiona təsir edirmi?

Şərqşünas Temur Umarov belə izah edir ki, tarixi kontekstdə Rusiyanın regionda sıx əlaqələri, o cümlədən qeyri-rəsmi əlaqələri və Mərkəzi Asiya siyasi elitasının etimadı var. Umarov deyir: "Onlar eyni dildə danışırlar və bir-birlərini çoxdan tanıyırlar". Ona görə də onun fikrincə, Rusiya regionda mövcud siyasi rejimlərin təhlükəsizliyinin əsas təminatçısı olaraq qalır.

Bununla belə, Rusiyanın güclü investisiya potensialı yoxdur. 2023-cü ildə Moskva Qazaxıstanda təxminən 2 milyard avroya başa gələn üç istilik elektrik stansiyasının tikintisini maliyyələşdirə bilmədiyini etiraf etdi və layihədən faktiki olaraq imtina etdi. O, izah edir ki, Rusiya əvvəllər öz güc mövqeyindən yararlansa da, 2022-ci ildən sonra özünü getdikcə daha çox sanksiyalardan yayınmaq üçün ticarət tərəfdaşı kimi yerləşdirib.

## Nüvə enerjisi və Rusiya qazı

Rusiya Mərkəzi Asiya ölkələrinə də Qazaxıstan və Özbəkistan üçün cəlbedici olan nüvə enerjisi texnologiyaları və karbohidrogenlər kimi sərfəli təkliflər edir. Eyni zamanda, bu ölkələr əvvəllər Avropa üçün nəzərdə tutulan Rusiya qazını alırlar. Bu, bir növ tarixi paradoksdur, çünki sovet dövründə qaz sistemləri əks istiqamətdə qurulmuşdu - Mərkəzi Asiya qazını geri çəkmək üçün yox, onu vurmaq üçün.

Nüvə enerjisi regionda ən çox tələb olunan sahələrdən biridir. Son dörd il ərzində Rusiya bu sektorda üç yeni layihə elan edib. Ən iddialı sazişlər Qazaxıstan və Özbəkistanla olub: Qazaxıstanda Rosatom ölkənin ilk AES-in tikintisi üçün əsas tərəfdaş kimi seçilib, onun gücü təxminən 2,4 GVt, Özbəkistanda isə kiçik və böyük atom elektrik stansiyalarının birləşmiş kompleksi planlaşdırılır. Qırğızıstan hakimiyyəti də oxşar niyyətlərini açıqlayıb. Çin bu layihələrin əksəriyyətində iştirak edir. Tipik olaraq, Rusiya reaktorların təchizatına cavabdehdir, Çin şirkətləri isə avadanlıqların tədarükü, tikintisi və quraşdırılmasına cavabdehdirlər. Onlar heç kimi incitməməyə çalışırlar.

## Çin Rusiyanı sıxışdırır

Çin Rusiyanın regionda əsas alternatividir. Rəqabət 1990-cı illərdən bəri davam edir. Bir tərəfdən Rusiya bütün məsələlərdə əsas tərəfdaş idi, digər tərəfdən isə region ölkələrinin canını qurtarmağa can atdığı monopolist idi. Çin bu asılılığı şaxələndirmək üçün fürsətə çevrilib. Eyni zamanda Mərkəzi Asiya ölkələri Çin, Rusiya, Aİ, Türkiyə, ABŞ, Yaponiya və Cənubi Koreyanın təsirini diversifikasiya etməyə çalışır. Yeni reallıqda bu regionun dövlətləri bütün mühüm oyunçular tərəfindən tələbat olduğunu sübut edib. Onlar bütün bu ölkələrlə C5+ formatlarını işləyib hazırlayıblar (formata beş Mərkəzi Asiya ölkəsi - Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan daxildir).

Rusiya, Çin və Aİ-nin Mərkəzi Asiyaya təsiri bu gün təsir dairələri arasında aydın sərhədləri olmayan mürəkkəb, bir-birinə qarışmış maraqlar sistemini təmsil edir. Bəzi bölgələrdə Moskva, digərlərində Pekin üstünlük təşkil edir və Avropa İttifaqı getdikcə iqtisadiyyatda əhəmiyyətli rol oynayır. Eyni zamanda, ekspertlər qeyd edirlər ki, region ölkələri daha böyük müstəqilliyə can atırlar və öz suverenliyini getdikcə daha da möhkəmləndirirlər. Əgər Mərkəzi Asiya bir vaxtlar "insanların həyəti" adlanırdısa, indi o, özünü tamhüquqlu oyunçu kimi təsdiq etməyə çalışır.

**V.VƏLİYEV**

# Xankəndidə dalğalanan bayrağımız!



***İki il əvvəl oktyabrın 15-də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev əzəli və əbədi torpaqlarımızda - Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda üçrəngli bayrağımızı ucaltmaqla tariximizə yeni salnamələr əlavə etdi. Əzəli torpaqlarımıza sancılan əzəmətli bayrağımızın dalğalanmasını görmək, onun seyrçisinə çevrilmək hər bir azərbaycanlını qürurlandıran ali dəyər olaraq yaddaşlara köçdü. Görülən işlər, Azərbaycanın yaratmış olduğu reallıqlar bir daha deməyə əsas verir ki, dövlət başçımız 22 il bundan əvvəl Azərbaycan xalqı qarşısında verdiyi bütün vədləri yerinə yetirib.***

44 günlük Vətən müharibəsinin gedişi və sonda əldə olunan Zəfər dünyaya bir daha sübut etdi ki, Azərbaycan xalqı məğrur xalqdır və heç vaxt işğal ilə barışıb, yaşaya bilməzdi.

Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. Bəyanatda göstərilirdi ki, Ermənistan öz üzərinə öhdəlik götürür ki, qarşıdan gələn 20 gün ərzində Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracaq: Bəyanatdan da göründüyü kimi, işğalçı qüvvələr Kəlbəcər rayonunu noyabrın 15-dək təhvil verməli idi. Amma Ermənistan tərəfi ordunun və qanunsuz olaraq yerləşdirilmiş insanların rayondan çıxarılması üçün əlavə 10 gün vaxt istədi. Azərbaycan dövləti, Prezident İlham Əliyev həmişə olduğu kimi humanizm prinsiplərinə böyük üstünlük vermiş oldu.






Azərbaycanın qazandığı Zəfərdə dövlət-xalq birliyi, Müzəffər Ali Baş Komandana və Azərbaycan Ordusuna olan inam, ölkəmizin keçdiyi inkişaf yolu əsas rol oynadı. Əlbəttə ki, müharibənin gedişi deməyə əsas verirdi ki, düşmən döyüş meydanında çox böyük itkilər verərək uduzmuş dövlətə çevrildi. Vətən müharibəsi Azərbaycanın böyük Zəferi ilə bitdi. Azərbaycan son 2 əsrlik tarixində ilk dəfə idi ki, müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi ilk növbədə Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. 44 günlük müharibə Azərbaycan xalqının, onun Liderinin, şanlı ordumuzun gücünü bütün dünyaya nümayiş etdirdi. 44 gün ərzində, sadəcə, müharibə meydanında deyil, həmçinin diplomatik cəbhədə də mübarizə aparan Azərbaycan hər iki döyüşdən qalib çıxdı. Beləliklə, 30 ilə yaxın davam edən münaqişə başa çatmaqla yanaşı, tarixi ədalət bərpa olundu, bölgədə yeni reallıqlar yarandı.

Güclü olan Azərbaycan əzəli torpaqlarına sahibdir və ərazisindən bir qarışını da kimsəyə verməz. Yenilməz xalqımız bir yumruq ətrafında lazım olan anda birləşməyi bacarır və hədəfə doğru bir məqsədlə irəliləyir. Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndi şəhərində üçrəngli Azərbaycan Bayrağını ucaltması və çıxışında səsləndirdiyi fikirlər dünyaya ölkəmizdən bir mesaj oldu. Prezidentimiz Xankəndi şəhərində çıxışı zamanı bəyan etdiyi kimi, bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır. 2003-cü il oktyabrın 15-də İlham Əliyev Azərbaycan Prezidenti seçildiyi ilk gündən müdrik, uzaqgörən siyasəti ilə ötən illər ərzində Azərbaycan gücləndi və dünya miqyasında özünə layiqli yer tuta bildi.

## "ARTIQ AZƏRBAYCANLA DÜNYADA HESABLAŞIRLAR"

Prezident İlham Əliyev vəzifə borcunu yerinə yetirməyə başlayanda qarşısında bir nömrəli vəzifə olaraq Azərbaycan Bayrağını işğal altında olan ərazilərdə - bütün şəhər və kəndlərdə qaldırılmasını qarşısına məqsəd qoymuşdur. Həqiqətən də, 2003-cü il oktyabrın 15-də İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsi ilə dövlətimiz Zəfər yoluna qədəm qoydu. Xalqımız əmin idi ki, Ulu Öndər Heydər Əliyevin bəzi tamamlanmamış işlərini Onun davamçısı İlham Əliyev böyük məharətlə başa çatdıracaq. "İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır", - deyə Prezident çıxışında vurğulamışdı. Dövlət başçımız bu məqsədə doğru irəliləyərək Azərbaycanı regionda aparıcı dövlətə, dünyada çəkisi və nüfuzu olan, söz sahibinə, beynəlxalq layihələrin təşəbbüskarına çevirdi. Bu zaman məsafəsində Azərbaycan gücləndi, iqtisadiyyatımız günü-gündən artdı, dinamik inkişafın məntiqi olaraq insanların rifah halı yüksəldi. "Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir", - deyə Azərbaycan Prezidenti bildirib.

## "ELƏ BİR GÜCLÜ ORDU YARATDIQ Kİ, BU GÜN AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ İSTƏNİLƏN VƏZİFƏNİ ŞƏRƏFLƏ YERİNƏ YETİRƏ BİLƏR"

Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Dünyada söz sahibi olan Azərbaycan Cənubi Qafqazın lideri statusunu daşıyır. 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad edilməsi və Vətən müharibəsindəki tarixi Qələbə Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldib. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Qarabağ münaqişəsi zonasında atəş və bütün hərbi əməliyyatlar tam dayandırıldı.

İki ilə əvvəl sentyabrın 19-da antiterror tədbirləri keçirildi. Cəmi 23 saat 43 dəqiqə ərzində keçirilən əməliyyat nəticəsində Qarabağda qanunsuz yerləşdirilmiş erməni silahlı qüvvələri zərərsizləşdirildi, onların hərbi obyektləri məhv edildi. Azərbaycanın ərazi bütövlüyü tam təmin olundu. Beləliklə, Ağdərə, Xoçavənd, Xocalı və Xankəndidən separatçıların qovulması ilə ölkəmizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olundu. Azərbaycanın Qarabağdakı erməni silahlı qruplaşmalarına qarşı apardığı qətiyyətli mübarizənin qələbə ilə nəticələnməsi, bunun ardınca Prezident İlham Əliyevin 2023-cü ilin oktyabrın 15-də bölgənin mərkəzi şəhəri olan Xankəndidə Azərbaycan Bayrağını ucaltması mühüm əhəmiyyətli hadisə olaraq tariximizə həkk olundu. Ali Baş Komandanın rəhbərliyi ilə müasir Azərbaycan ordusu öz gücünü, məharətini, peşəkarlığını istənilən vəziyyətdə nümayiş etdirir. "Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu", - deyə Prezident Xankəndi şəhərində çıxış edərkən bildirmişdi.

Bu gün Xankəndidə - işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və quruculuq prosesi Azərbaycanın gücünü, strateji baxışını və idarəetmə qabiliyyətini nümayiş etdirir. Hazırda regionda genişmiqyaslı infrastruktur layihələri icra olunur. Yeni avtomobil və dəmir yolları, hava limanları, elektrik və su təchizatı sistemləri yaradılır, iqtisadiyyat, təhsil, səhiyyə, ictimai xidmətlər, mədəni irsin bərpası və digər istiqamətlərdə mühüm layihələr həyata keçirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Sülh sammiti Azərbaycana yüksək səviyyəli münasibəti bir daha təsdiqlədi”

**“Azərbaycanın beynəlxalq məsələlərdə ədalətli mövqeyi, hər zaman sülhün yanında olması ölkəmizə olan diqqəti artırıb. Azərbaycan Prezidentinin Misirdə keçirilən Qəzza sammitində iştirakı da bununla bağlıdır. Məlum olduğu kimi, dövlət başçımız sözügedən sammitə ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Abdülfəttah əs-Sisi tərəfindən dəvət edilmişdi. Sammit çərçivəsində cənab Prezidentlə D.Tramp arasında keçirilən görüş, eləcə də digər dövlət başçıları ilə təmaslar Azərbaycana yüksək səviyyəli münasibəti bir daha təsdiqlədi”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Nigar Məmmədova deyib.**




Deputat bildirib ki, orta güc kimi Azərbaycan Yaxın Şərq sülh gündəliyinə yalnız müsbət töhfə verə bilər: ”Ölkəmiz uzun müddət işğaldan, münaqişədən, humanitar fəlakətdən əziyyət çəkən tərəf kimi bütün regionlarda sabitliyi, dayanıqlı təhlükəsizliyi dəstəkləyir.

Şübhəsiz, Yaxın Şərqdə sülh sammiti tarixi əhəmiyyət daşıyır, burada imzalanan yekun sənəd uzunmüddətli münaqişəyə son qoymağa hesablanıb. Vaşinqtonun təklif etdiyi plana əsasən, Qəzza bölgəsi HƏMAS ilə əlaqəsi olmayan mülki administrasiyanın rəhbərliyinə veriləcək. Bu administrasiya Fələstin muxtariyyətinə sadiq olacaq və beynəlxalq nəzarət altında, Körfəz ölkələrinin maliyyə dəstəyi ilə fəaliyyət göstərəcək.

Ağ Evin ”dönüş nöqtəsi” hesab etdiyi sammitin regional sabitlik epoxasının əsasını yaradacağına ümidlər böyükdür.

Ev sahibi kimi Misir ərəb dünyası ilə beynəlxalq birlik arasında əlaqələndirici missiyanı yerinə yetirmiş oldu.

Belə tarixi bir hadisənin iştirakçıları arasında yer almaq Azərbaycanın diplomatik üstünlüyüdür. Bu platformaya dialoqa, sülhə dəstək verən tərəf kimi qatılan Azərbaycan sammitdə iştirak edən bütün tərəflərlə normal münasibətlərə malikdir. Azərbaycan Suriyaya yardım məqsədilə onun enerji təminatına dəstək verir.

Yeri gəlmişkən, son dövrlər İsrail-Suriya, Türkiyə-İsrail arasında vasitəçilik təşəbbüsləri Azərbaycana beynəlxalq aləmdəki etimadı daha da artırıb. Ən əsas məsələ budur ki, vasitəçilik missiyası zamanı da Azərbaycan üçün beynəlxalq hüququn norma və prinsipləri prioritet təşkil edir. Bütün bunlar Azərbaycan Prezidentinin sülhsevər lider kimi nüfuzunu möhkəmləndirir. Hesab edirəm ki, Yaxın Şərqdə yeni start götürən sülh prosesinə Azərbaycan öz zəngin təcrübəsi əsasında töhfə verəcək”.

***Səbinə Hüseynli***

# Süd vəzi xərçəngi: hər 8 qadından biri...

*Oktyabr ayı bütün dünyada süd vəzi xərçəngi ilə mübarizə ayı kimi qeyd edilir*

Dünyada qadınlarda ən çox rast gəlinən və eyni zamanda ən çox ölüm səbəbi olan süd vəzi xərçəngi süd vəzisi toxumasında hüceyrələrin nəzarətsiz çoxalması nəticəsində yaranır. Hər il oktyabr ayında keçirilən ”Döş Xərçəngi Maarifləndirmə Aylığı” dünyada 2,3 milyon qadını əhatə edən bu xəstəliyin qarşısının alınmasına təşviq etmək məqsədi daşıyır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarında bildirilir ki, yeni diaqnoz qoyulan xərçəng xəstələrinin faiz sıralamasına görə 11,7%-i süd vəzisi, 11,4%-i ağciyər, 10%-i qalın bağırsaq, 7,3% -i prostat, 5,6%-i isə mədə xərçəngidir.



Maarifləndirmə ayı çərçivəsində metastatik döş xərçəngi də daxil olmaqla döş xərçəngi diaqnozu qoyulmuş insanlara dəstək, döş xərçəngi risk faktorları haqqında insanların maarifləndirilməsi və məlumatlılığının artırılması, döş xərçəngi risklərini bilmək və uyğun yaşdan başlayaraq müntəzəm müayinənin vacibliyini vurğulamaq kimi vacib məsələlər diqqətə alınır. Xəstəlik haqqında daha çox dəstəyə və araşdırmaya ehtiyac haqqında məlumatlılığın artırılması üçün bütün yollar sınanır, bütün mübarizə üsullarından istifadə edilir. Erkən mərhələdə aşkar edilən süd vəzi xərçəngləri daha rahat müalicə olunur və ölüm nisbəti də əhəmiyyətli dərəcədə azalır.

Dünyada aparılan araşdırmalar zamanı uzun boylu qadınların xərçəngə yaxalanma riskinin daha yüksək olması barədə nəticələr əldə edilir. Bunu bir müddət öncə Amerikanın Albert Enşteyn Tibb Colleci də sübut etdi. Araşdırmanın nəticəsinə görə hər 10 sm uca boy qadınların süd vəzi, yumurtalıq, böyrək, dəri xərçəngi kimi xəstəliklərə yaxalanma riskini 13 faiz artırır. Bundan öncə də İngiltərənin Oksford Universitetində aparılan araşdırmalar 1,52 sm-dən uzun insanlarda hər 10 sm-ə görə xərçəng riskinin 16 faiz artdığını müəyyən etmişdilər. Əgər hazırda dünyada orta statistik boy nisbətini 10 il əvvəllə müayisə etsək görərik ki, insanlar getdikcə daha bəstəboy olur. Alimlər bunu qidaların genetik kodlarımızı dəyişdirməsi ilə əlaqələndirirlər.



Döş xərçəngi bir çox faktorun təsiri ilə meydana gələn xroniki xəstəlikdir. Amma bütün xərçəng növlərində olduğu kimi döş xərçəngindən də müdafiə üsulları var. Tərəvəz və meyvələrlə zəngin olan qidalardan istifadə etməklə, sağlam qidalanma vərdişləri yaratmaqla, fiziki aktivliyi artırmaqla, sağlam çəki saxlamaqla, siqaret və spirtli içkilərdən uzaq durmaqla xərçəngdən sığortalanmaq mümkündür. Xüsusilə qeyd etmək lazımdır ki, ana südü ilə qidalanmanın döş xərçəngindən qoruduğunu göstərən çoxlu araşdırmalar var ki, mütəxəssislər bütün anaların körpələrini ən az 2 il əmizdirmələri tövsiyə edir. Bu həm körpənin, həm də ananın sağlamlığı üçün vacib məsələdir.

Süd vəzi xərçəngi dünyada yayılmış ən geniş xərçəng növüdür. Hər il dünyada 400 000 qadına bu diaqnoz qoyulur. Bu, hər 29 saniyəyə bir qadının xəstə olması deməkdir. Ümumilikdə hər 8 qadından birində süd vəzisi xərçənginə rast gəlinir. Dünyada 40 yaşdan aşağı qadınlarda bu xəstəliyə görə 1-ci yeri Türkiyə tutur. Bu ölkə 40 yaşdan aşağı qadınlarda süd vəzisi xərçəngi diaqnozu sayına görə dünyada birinci yerdədir. Azərbaycanda hər 8 qadından biri süd vəzi xərçəngindən əziyyət çəkir və bu rəqəm ilbəil artmaqdadır. Üstəlik də, bu xəstəlik artıq çox gəncləşib. Bir çox qadının mammoqrafiya etdirmədiyini nəzərə alsaq bu rəqəmin ildən ilə daha çox olacağını ehtimal etmək olar.

Xərçənglə mübarizə zamanı dəyişdirə biləcəyimiz və bilməyəcəyimiz faktorlar var. Döş xərçəngindən bədənimizi mühavizə etmək üçün dəyişdirilə bilən risk faktorları oturaq həyat sürmək, artıq çəki və ya piylənmə, siqaret və alkoqol kimi faktorlardır. Dəyişdirə bilməyəcəyimiz faktorlar isə genetik olaraq xəstəliyə qarşı zəiflik, erkən və ya gec klimaks dövrü, sinə ətrafında radioloji şüalanmaya məruz qalmaq kimi vəziyyətlədir. 40 yaşını keçən hər yüz qadından 2-si süd vəzisi xərçənginə yoluxur. Erkən diaqnozu qoyulan xəstəliyin sağalma şansı 95 faizdir.

Tibb elmi deyir ki, qadınlar iyirmi yaşından başlayaraq hər ay müntəzəm olaraq süd vəzilərini müayinə etdirməlidir, belə olan halda döşlərindəki ən kiçik dəyişiklikləri erkən yaşda hiss edə biləcəklər. Döş xərçənginin mümkün qədər erkən aşkarlanması uğurlu müalicə şansı verir. Döş xərçənginin ən çox rastlanan əlaməti zamanla böyüyən ağrısız bir kütlənin olmasıdır. Bundan əlavə, süd vəzisinin şişməsi, ağrısı, qaşınma və ya iltihablanması, irinli və qanlı maye ifrazı, süd vəzinin ölçüsünün kiçilməsi, dərisinin portağal qabığı effekti, qoltuq altında kütlənin yaranması, köprücük sümüyünün ətrafında şişlik də döş xərçənginin əlamətləri ola bilər. Bu əlamətlər süd vəzi xərçəngindən başqa digər xəstəliklərdən də qaynaqlana bilsə də, müşahidə olunarsa, səbəbini öyrənmək üçün həkim müayinəsindən keçmək lazımdır.



Unutmayaq ki, döş xərçəngi inkişaf etmiş mərhələlərə çatana qədər simptomlara səbəb olmaya bilər. Odur ki, yuxarıda göstərilən əlamətlər diaqnoz qoymaq üçün kifayət etmədiyi üçün həkim müayinəsindən keçmək də şərtdir. Erkən diaqnoz müalicənin yaxşı nəticə verməsini və sağ qalma müddətini artırır. Bu səbəblə 40-69 yaş arası bütün qadınların 2 ildən bir mamoqram müayinəsindən keçməsi tövsiyə olunur. Erkən diaqnozun qoyulmasında ən mühüm faktor qadınların bu məsələdən xəbərdar olması və 40 yaşından başlayaraq mütəmadi olaraq mamoqrama getməsidir.

Evdə özümüz də süd vəzilərinin vəziyyətini yoxlaya bilərik. Bir çox ölkədə qadınlara bu mövzuda təlim də keçirilər və qadınlar 20 yaşından sonra hər ay süd vəzilərini öz-özünə müayinə edirlər. Bu müayinə zamanı insanlar güzgü qarşısında durub hər iki döşün görünüşünün simmetrik olub-olmadığını yoxlayırlar. Yuxarıda sadaladığımız əlamətlərdən hər hansı biri varmı, öyrənilir. Döşündə bir şiş, dəridə quruluq, yanma, qaşınma, ifrazat və ya hər zamankından fərqli bir əlamət görən qadın dərhal həkimə müraciət etməlidir. Xərçəng müalicə edilə bilən xəstəlikdir, yetər ki, zamanında müdaxilə edilsin və düzgün müalicə kursu təyin edilsin.

***Lalə Mehralı***

# İslam bankçılığı sisteminin digərlərindən fərqi nədir?

*İQTİSADÇI AÇIQLADI*





Azərbaycanda gələn ildən faizsiz, yeni İslam prinsiplərinə əsaslanan kreditlərin verilməsi planlaşdırılır. Bu, həm vətəndaşlara, həm də sahibkarlara yeni maliyyə imkanları açа bilər. Artıq Mərkəzi Bank bu istiqamətdə hüquqi bazanı formalaşdırmağa başlayıb. Bəs, bu sistemin üstünlüyü nədə olacaq və insanlar bu kreditlərdən necə yararlana biləcəklər? İslam bankçılığı nə deməkdir və onun adi kreditlərdən əsas fərqi nədir?

Məsələ ilə bağlı deputat, iqtisadçı Vüqar Bayramov SİA-ya açıqlamasında bildirib ki, Azərbaycan İslam bankçılığını tətbiq etməyə hazırlaşan dövlətlər arasında öz yerini almaqdadır. Onun sözlərinə görə, bu təşəbbüs həm iqtisadi şaxələndirmə strategiyasının bir hissəsi olaraq, həm də əhalinin müxtəlif təbəqələrinin maliyyə xidmətlərinə daha geniş çıxışını təmin etmək məqsədi daşıyır: "Xüsusilə qlobal maliyyə böhranlarının bank sektoruna vurduğu zərbələr, alternativ və daha dayanıqlı maliyyə modellərinə olan marağı artırmışdır. Bu kontekstdə İslam bankçılığı öz prinsipləri və risk paylaşımına əsaslanan yanaşması ilə diqqət çəkir. Ənənəvi qərb bank sistemi əsasən faiz üzərində qurulub. Bu sistemdə banklar əmanətləri cəlb edir və həmin vəsaitləri faizli kreditlər şəklində dövriyyəyə buraxır. Lakin bu model bəzən spekulyativ əməliyyatlara və kredit balonlarına səbəb olur ki, bu da maliyyə sistemində qeyri-sabitlik və riskləri artırır. Əksinə, İslam bankçılığı faizin olmamasına əsaslanaraq daha çox real iqtisadi fəaliyyətlərin maliyyələşdirilməsinə üstünlük verir. Burada gəlir yalnız faktiki əldə olunan qazanc və ya zərərin bölüşdürülməsi yolu ilə əldə olunur.

Azərbaycan üçün İslam bankçılığının tətbiqi hibrid yeni qarışıq bank sisteminin formalaşmasına imkan yaradacaq. Bu, bir tərəfdən banklarda vəsait yerləşdirməklə vətəndaşların bankların maliyyələşməsinə imkan yaradacaq. Digər tərəfdən isə vətəndaşların islam bankçılığı çərçivəsində faizsiz kreditlərin təşkil edilməsi mümkün olsun. Beynəlxalq praktikada İslam maliyyə alətləri daha çox real sektora yönəldilir. Faizsiz kreditlər və investisiya alətləri kənd təsərrüfatı, istehsal, ticarət və xidmət sahələri kimi real iqtisadi sahələrin inkişafına xidmət edir. Bu isə həm iqtisadi aktivliyi artırır, həm də məşğulluğun genişlənməsinə səbəb olur. Azərbaycan kontekstində isə bu, regionlarda sahibkarlığın dəstəklənməsi, kiçik və orta biznesin inkişafı və əhalinin rifah halının yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İslam bankçılığı Azərbaycan üçün təkcə alternativ maliyyələşmə mexanizmi deyil, eyni zamanda iqtisadi sabitliyin və sosial ədalətin təmin olunmasında potensial vasitə kimi çıxış edə bilər. Bu modelin uğurla tətbiqi üçün isə hüquqi bazanın təkmilləşdirilməsi, ictimai maarifləndirmə və peşəkar kadr hazırlığı kimi mühüm istiqamətlərdə işlər aparılmalıdır. Dövlətin bu sahədə atacağı strateji addımlar gələcəkdə Azərbaycanın regional İslam maliyyə mərkəzinə çevrilməsi üçün zəmin yarada bilər".

***Arzu Qurbanlı***

## FELYETON



# Ay camaat, nə yeyirsiniz?..

**Nə yeyirsiniz, ay camaat?..**

Soruşursan ki, ay camaat, nə yeyirsiniz? Deyirlər ki, sənə nə var. Heç verilməli sualdır, nə yeyirsiniz? Nə yeyəcəyik ki, dükan-bazar doludur ərzaqla, tərəvəzlə, min bir adda, min bir çeşiddə, həm də bir-birindən gözəl, cəlbedici. Gedib alıb gətiririk, doldururuq soyuducuya, yeyirik. Suala bax, nə yeyirsiniz. Yox bir, gəlin bu işimizə də qarışın.

Gördüyün kimi, yeyirik ki, ayaq üstündəyik də. Yeməsəydik, çox yəqin ki, o dünyada olardıq. Ta hər işə də qarışmayın ki? Bəsdir də, başımıza ağa kəsiləcəksiniz? Onu etməyin, bunu etməyin, belə olmayın, niyə belə olmalıdır? Bezdirirsiniz ey adamı. İndi də nə yeyirsiniz. Nə yemirik ki, şükür Allaha.

İndi ki, bu qədər maraqlısınız, buyurun, görün nə yeyirik. Necə deyərlər, gir bazara, quş südü tap. Bazarlar doludur ətlə, balıqla, toyuqla, yumurta ilə. Kənd toyuğu ayrı, broyleri ayrı, budu, qanadı, içalatı, yumurtası ayrı. Bazar dolur, boşalır, istehsal var da, həm də sürətli. Yoxsa bu qədər tələbatı çatdırmaq olar? Kartof, soğan, sarımsaq, badımcan, bibər, pomidor, xiyar, göyərti, nə bilim, hər cür tərəvəz var. Bazar- market doludur qışda yayda yetişən, yazda payızda yetişən meyvə-giləmeyvələrlə. İlboyu piştaxtalardan əskik olmayan tərəvəzlərlə. Göz istəyir ki, gözəlliklərinə baxsın. Heç yayda elə tərəvəzlər olmur. Adamın üzünə gülür.

Qış üçün heç turşu tutmağa ehtiyac yoxdur, təzə pomidor, xiyar, rəngbərəng bibərlər, göyərti istənilən qədərdir. Qatıq, süd, pendir, şor, kərə yağı nə qədər istəyirsən. Maşallah, görün nə qədər süd istehsal olunur ki, süd məhsulları ayaq tutub yeriyir.

Marketlər doludur ərzaqla. Nə istəsən ala bilməzsən? Yerlisi də var, xaricdən gələni də. Biz də qədrimizi bilirik, xaricdən gələni alırıq. Niyə? Çünki insanı yaxşı qidalanmaq yaşadır. Niyə də ki, almayaq, bir dəfə gəlirik dünyaya. Nə üçün süfrəmizə istədiyimiz məhsulu qoymayaq? Bunun düyüsü, mərciməyi, noxudu var, kərə, günəbaxan, qarğıdalı yağları var. Hansının rəngi gözəldir, görünüşü böyükdür, xaricdən gəlib, ondan alırıq.

Yağlar da ki, həm təmiz, keyfiyyətli, həm də qiymətləri münasib. Məsələn, kərə yağı var ki, kiloqramı 5-6 manata, günəbaxan, qarğıdalı yağları var 4-5 manata. Belə götürəndə 1 kiloqram kərə, 1 litr günəbaxan, qarğıdalı yağları üçün heç xammalı bu qiymətə almaq olmaz. Çox razıyıq qiymətlərdən də, keyfiyyətdən də. Şükür Allaha, süfrəmiz də ki, doludur.

Hələ marketlərdə endirimli qiymətləri demirik. Hər gün endirim var. Bu, bolluqdan irəli gəlir. Məhsul boldur, market sahibləri də ədalətli, deyirlər qoy satılsın, camaat alıb yesin. Biz də daşıyırıq daşıya bildikcə. Ta nə etməliyik ki...

Cavabımı necə aldımsa, nitqim qurudu. Dedim, düz deyirsiniz, həqiqəti deyirsiniz, haqlısınız. Əlbəttə, insan yeməsə ölər. Ancaq mən nə yeyirsiniz deyəndə GMO-nu soruşmaq istəyirdim. Başladılar gülməyə: yenə başlamayın da, gündə bir hoqqa çıxarırsınız, GMO nədir?

Mən də bayaqdan bəri az qala məni öldürmək istəyənlərə acıqla dedim ki, axşamadək İntagram, Facebook, Tiktok-dan çıxmırsınız. Yazın, görün, nədir də...

***Mətanət Məmmədova***
***P.S. 16 oktyabr-Dünya Qida Günü münasibətilə yazdım.***



**İLHAM**

# Bu, o oğlan deyilmiş

***İndiki dövrdə hər kəs hərəkətində və əməlində sərbəstdir. Kim istəyir çıxıb küçənin ortasında dombalanquş aşır, kimisi sosial şəbəkələrdə lüt-üryan olub özünü nümayiş etdirir, başqa birisi isə kəllə-mayallaq sözləri və fikirləri ilə insanların diqqətini özünə cəlb etməyə çalışır. İnsanların isə mövqeyi fərqlidir. Hərə baş verənlərə və nümayiş olunanlara öz əxlaqına və düşüncəsinə uyğun münasibət bildirir.***

Görünən fakt ondan ibarətdir ki, bəzi siyasət adamları ciddi siyasi rəy, fikir bildirməkdən, əsaslı addım atmaqdan uzaq olmağa çalışırlar. Düşünürlər ki, təlxəklik etmək, gülüş doğuran fikirlər səsləndirməklə daha böyük uğur əldə edə bilərlər. Fikir vermisinizsə, Fransa prezidenti E.Makron və Ermənistanın baş naziri Nikol Paşinyanın əndərəbadi hərəkətlərə və təəccüblü görünən fikirlərə daha çox yer verirlər. Xüsusilə də Nikol adlı məxluq ciddi siyasi fəaliyyətlə məşğul olmaqla nəticə əldə edə bilməyəcəyini anladığından, gücünü verib təlxəkliyə. Ədalət naminə demək olar ki, onda bu fəaliyyət pis alınmır. Adam sağ əlini boyunun arxasından keçirməklə sol qulağını qarsıyır, rəsmi tədbirlərdə barmağını burnunun içinə salıb iyrənclik edir, sadə rəhbər olduğunu nümayiş etdirmək üçün velosipedlə küçələri dolaşır, metro ilə işə gəlir, uçuq-sökük kafedə kofe içib, dəmlənir. Dəmlənir yazdım, onun Şuşada içib ağlını itirdikdən sonra, sərsəm fikirlər səsləndirib müxtəlif hoqqalar çıxarması düşdü. Təbii ki, onun bu təlxəkliyi Ermənistana və havadarlarına baha başa gəldi. 2020-ci ilin sentyabrın 27-də Ermənistanın başbilənləri daxil olmaqla Paşinyan Azərbaycanın müzəffər ordusu tərəfindən elə bir dəmir yumruq zərbəsi aldı ki, bu gün də Paşinyan gic toyuq kimi fırlanır. Onun aradabir beynəlxalq tədbirlərdə özünü yarı erməni, yarı ingilis dilində qırıq-qırıq sözlər ifadə etməsi də gündəmin gülüş doğuran hadisələrindəndir. Ancaq aradabir həqiqəti də dilə gətirir. Məsələn, deyir ki, ermənilərin Qarabağa qayıtması məsələsinin qaldırılması zərərlidir və sülh üçün təhlükəlidir. Bir qədər də açıq fikirlərlə çıxış edən Paşinyan etiraf edib ki, "Qarabağ məsələsi" uzun illər dövlət siyasətinin deyil, hakimiyyət uğrunda mübarizənin aləti olub. Bu fikirlərlə ermənilərin ağıllandıqlarını düşünmək sadəlövhlük olar. Sadəcə, Paşinyan millətinin timsalında özünü realist, həqiqəti dilə gətirən şəxs kimi göstərməyə və bununla da beynəlxalq təşkilatlarda, xarici ölkə rəhbərlərinin yanında özünü açıq fikirli, demokratik düşüncəli məxluq olaraq nümayiş etməyə ümid edir. Ancaq dünya erməni bicliyindən və hiyləgərliyindən kifayət qədər məlumatlıdır. Zatən xarici ölkə başçıları onu ciddi şəxs kimi də qəbul etmirlər. Bəlkə də xarici dövlət başçıları Paşinyanı məsxərəyə qoyub, öz aralarında "gör erməni milləti nə gündədir ki, onların Paşinyan kimi səviyyəsiz liderləri var", - deyə söylənirlər. Fikir vermisinizsə, ABŞ prezidenti Donalt Trampla Paşinyan bir neçə dəfə görüşüblər. Ancaq hələ də Tramp Paşinyanı düz-əməli tanımır. Hər dəfəsində "o oğlan" deyə əlini Paşinyana uzadır. Hətta Paşinyanın təmsil olunduğu dövlətinin adını da tam formada ifadə etmir. Dəfələrlə Tramp Azərbaycan - Ermənistan deməkdənsə, Azərbaycan - Albaniya söyləyir. Xarici KİV-lər də yazılanlara görə Paşinyan D.Trampın təhqirlərinə son qoymaq üçün onunla söhbət etməyə və düzəlişə nail olmağa çalışıb. Belə bir fürsət yaranıb. Misirin Şarm əl-Şeyx şəhərində keçirilən Sülh sammitində Paşinyan protokol qaydalarından kənara çıxaraq Trampa yaxınlaşıb və deyib "Cənab Prezident, mən o oğlan deyiləm, Nikol Paşinyanam, ölkəmin adı isə Albaniya deyil, Ermənistandır". Bundan sonra D.Tramp "sən pis oğlana oxşamırsan" deməklə ondan uzaqlaşıb.

Bəli, bu məxluq siyasi biliyi olmayan, hakimiyyət kreslosuna təsadüfən oturdulan şəxsdir. Belə baxanda yaxşı haldır. Çünki o ölkəsinə və xalqına layiq davranış göstərir. Demokratik düşüncəli dünya xalqları Paşinyanın timsalında bir daha Ermənistan adlı barbar quruluşun və xalqının səviyyəsinin hansı formada olduğunu görür və eşidir.

# Pakistan və Əfqanıstan arasında hərbi toqquşmanı ABŞ təşkil edib?

***2** günlük hərbi toqquşmalardan sonra dünən Əfqanıstan və Pakistan fəal hərbi əməliyyatlara son qoyduqlarını bəyan ediblər. Bununla belə, çoxlu sayda qoşun və texnika ortaq sərhəddə cəmləşib və keçid məntəqələri bağlıdır. Hər iki tərəf də bir-birini yaraqlılara sığınacaq verməkdə ittiham edir. Bölgədə kəskin eskalasiyanın arxasında kim və niyə dayana bilər və münaqişə tərəfləri arasında mövcud vəziyyət nədir?*

Əfqanıstan və Pakistan arasında gərginlik cümə axşamı Pakistan pilotsuz uçan aparatının Kabilə basqın edərək, Taliban əmiri Nur Vəli Məsud və onun tərəfdaşları Seyfullah Məsud və Xalid Məsudun olduğu zirehli yolsuzluq avtomobilini məhv etdikdən sonra başlayıb.

Bir neçə saat sonra Pakistan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələri Əfqanıstanın şərqinə zərbələr endirib, Paktika vilayətinin Barmal rayonundakı Morqa bazarına hücum edib. RİA Novosti xəbər verir ki, aviazərbə nəticəsində insan tələfatı olmasa da, təxminən 10 mağaza tamamilə məhv edilib, daha bir neçəsi isə yanıb.











Demək olar ki, dərhal iki ölkə arasındakı bütün sərhəd boyunca atışma baş verdi, keçid məntəqələri məhv edildi. Bundan əlavə, Əfqanıstan Hərbi Hava Qüvvələrinə məxsus "Super Tucano" qırıcıları Pakistanın Lahor şəhərinə və PUA bazalarına hava zərbələri endirib. Şəhərin şərq hissəsinin bəzi ərazilərində davamlı partlayış səsləri eşidilib, bir neçə yerdə yanğınlar başlayıb.

Əfqanıstan mediasının məlumatına görə, Pakistanda "İslam Dövləti" təşkilatı ilə əlaqəli hədəflərə də hücum edilib. Kabil Pakistanın Hayber Paxtunxva əyalətində yeni döyüşçülərin təlim mərkəzlərinin yaradıldığını bildirib.

Kabilin məlumatına görə, gecə ərzində keçirilən sərhəd əməliyyatı zamanı 58 pakistanlı əsgər həlak olub. Talibanın mətbuat katibi Zabihullah Mücahid bildirib ki, Əfqanıstan qüvvələri Pakistan ordusunun 25 mövqeyini ələ keçirib. Əfqanıstan Kunar vilayətinin bir neçə rayonunda tanklar və ağır silahlar yerləşdirmişdi.

Pakistanlılar isə artilleriya və artilleriyadan atəş açıblar və dövlət mediası Əfqanıstanın 19 sərhəd məntəqəsinin ələ keçirildiyini bildirib. İslamabad Torkham sərhəd keçid məntəqəsinə əlavə hərbiləşdirilmiş birləşmələr yerləşdirib. Əl-Cəzirə telekanalının məlumatına görə, Pakistan hərbçiləri Hayber əyalətinin Tirah rayonunda və Əfqanıstanın Nanqarhar əyalətində də ağır silahlardan istifadə ediblər.

İslamabad daha sonra 200-dən çox Talibançını və digər yaraqlıları öldürdüyünü iddia edib. "Taliban infrastrukturuna, düşərgələrinə, qərargahlarına və terrorçulara dəstək şəbəkələrinə bütün sərhəd boyu dəyən ziyan böyükdür",- Pakistan Müdafiə Nazirliyi bildirib.

Əfqanıstan Müdafiə Nazirliyi isə Pakistana qarşı "qisas əməliyyatı"nın uğurlu olduğunu bəyan edib. Taliban hücumların Qətər və Səudiyyə Ərəbistanının tələbi ilə dayandırıldığını bildirib.

Ekskalasiya Pakistan hakimiyyətinin Taliban rejimini rədd etməsi, eləcə də iki ölkə arasında 2500 kilometrdən çox uzanan qeyri-müəyyən sərhəd olan Durand xətti ilə bağlı mübahisə ilə əlaqədardır. Orada daimi olaraq müxtəlif növ mal, narkotik və silah daşınma əməliyyatları var. İslamabad buna nəzarəti bərqərar etmək istəyir.



Taliban öz perimetri boyu bütün qonşuları ilə sistematik şəkildə münasibətləri yaxşılaşdırır, həmçinin Moskva, Pekin və Mərkəzi Asiya dövlətləri ilə dialoq aparır. Pakistan isə ABŞ-ın təsirindədir və çox uzun önillər boyu ABŞ-ın yaratdığı böyük terrorçu təşkilatlar üçün fanatik terrorçu yetişdirmə bazası rolunu oynayıb.

Əksər analitiklər hesab edir ki, Əfqanıstan və Pakistan arasında eskalasiyanın arxasında ABŞ dayanır. Son aylarda İslamabad və Vaşinqton arasında kəskin yaxınlaşmanın şahidi olduq. İyun ayında Prezident Donald Tramp Pakistan Silahlı Qüvvələrinin baş komandanı Asim Munir ilə görüşüb, ardınca ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri Maykl Kurilla Pakistana səfər edib.

Analitiklər hesab edir ki, Vaşinqton və İslamabad ABŞ-ın maraqları naminə Kabilə təzyiq göstərmək üçün Talibanı qisas almağa təhrik edərək Əfqanıstan-Pakistan sərhədində eskalasiyaya başlamaq barədə razılığa gəliblər. Əsas səbəb ABŞ-ın Əfqanıstandakı "Baqram" aviabazasına nəzarəti bərpa etmək istəyidir ki, bunu Ağ Evin prezidenti Donald Tramp Böyük Britaniyaya səfəri zamanı açıq şəkildə bəyan edib.

Bu hərbi baza ABŞ üçün strateji əhəmiyyət kəsb edir, çünki orada yerləşən Amerika tərəfi Çinə qarşı hibrid əməliyyatlar keçirə bilər. Lakin Talibanın mətbuat katibi Zabihullah Mücahid deyib ki, "əfqanlar amerikalıları İslam Əmirliyindən qovub və onların bu ölkədə mövcudluğuna razı olmayacaqlar". İndi Tramp B planına keçib.

Hələlik, hərbi qarşıdurma dayandırılıb. Ümid edilir ki, toqquşmalar yenidən başlamayacaq. Lakin ABŞ-ın bölgədə Çinə və Rusiya qarşı güc mərkəzi yaratması planları rəfə atılmayıb hər an yenidən toqquşmalar başlaya bilər.

***Elçin Bayramlı***

# Toy etmək üçün borca girmək düzgündür?

***Toy mərasimi bir çox xalqlarda, o cümlədən Azərbaycanda, təkcə ailə qurmaq deyil, həm də sosial-mədəni hadisə kimi qəbul olunur. Bu mərasimlər adətən ailələrin maddi imkanlarından asılı olmayaraq təmtəraqla keçirilməyə çalışılır. Lakin son illərdə toy xərclərinin artması və sosial təzyiqlərin təsiri ilə bir çox gənclər ailə qurmaq üçün borca girməyə məcbur olurlar. Bu hal həm fərdi, həm də sosial-iqtisadi baxımdan ciddi nəticələr doğurur. SİA mövzu ilə bağlı araşdırma aparıb.***












## Azərbaycanda vəziyyət

Azərbaycan cəmiyyətində toy mərasimləri ənənəvi olaraq geniş miqyasda keçirilir. Qohum-qonşuların, dost-tanışların dəvət edilməsi, musiqi ansamblları, bəzək, geyim və restoran xərcləri bir toyu bəzən on minlərlə manata başa gətirir.

## Bu vəziyyətin bir neçə əsas səbəbi var:

Sosial gözləntilər və adət-ənənə təzyiqi: İnsanlar çox zaman "başqaları nə deyər" düşüncəsi ilə hərəkət edir, sadə toyun qınaq obyektinə çevriləcəyindən qorxurlar. Nəticədə, ailələr kredit götürməyə və ya qohumlardan borc almağa meyllənirlər.

## Ticarət və xidmət sektorunun təsiri:

Toy sənayesi - restoranlar, musiqi kollektivləri, foto və video xidmətləri, gəlinlik salonları və s. - bu sahədə rəqabət yaratmaqla yanaşı, xərcləri də artırır.

## Psixoloji amil:

Bəzi ailələr toyu "nüfuz göstəricisi" kimi qəbul edir. Bu isə gənc cütlüklərin iqtisadi sabitliyinə mənfi təsir edir, evlilikdən sonra kredit borcu ailədaxili stress və münaqişələrə səbəb olur.

Azərbaycan Banklar Assosiasiyasının məlumatına görə, son illərdə istehlak kreditlərinin müəyyən hissəsi toy və məişət tədbirləri ilə əlaqədar götürülür. Ekspertlər isə bu tendensiyanı sosial məsuliyyətsizlik və maliyyə savadlılığının aşağı olması ilə əlaqələndirirlər.

## Dünyada vəziyyət

Toy xərcləri və borc məsələsi təkcə Azərbaycana xas deyil.

## Dünyanın bir çox ölkəsində də oxşar tendensiyalar müşahidə olunur:

**ABŞ:**
"WeddingWire" və "The Knot" kimi araşdırma platformalarının məlumatına görə, ABŞ-da orta toy xərci 2024-cü ildə təxminən 30-35 min dollar civarındadır. Araşdırmalara əsasən, cütlüklərin təxminən 30%-i toy xərclərini qarşılamaq üçün kredit kartı və ya bank krediti istifadə edir.

Lakin burada maliyyə məsləhətçiləri toy üçün borc götürməyin yanlış olduğunu vurğulayır, daha çox "büdcə daxilində sadə toy" modelini tövsiyə edirlər.

**Hindistan:**
Toy mədəniyyəti ilə tanınan Hindistanda da vəziyyət bənzərdir. Ailələr bəzən illərlə yığdıqları vəsaiti və ya borcla əldə etdikləri pulları toya sərf edirlər. "Dowry" (cehiz) sistemi də əlavə maliyyə yükü yaradır. Bu, bəzi hallarda ailələrin uzunmüddətli borc bataqlığına düşməsinə səbəb olur.

**Türkiyə:**
Türkiyədə toy sənayesi də çox genişdir. Lakin son illərdə iqtisadi çətinliklər və inflyasiya fonunda gənclər arasında "az xərcli nikah mərasimi" tendensiyası artıb. Sosial mediada "sade nikah", "aile içi toy" kimi anlayışlar yayılaraq alternativ mədəniyyət formalaşdırır.

## Sosioloji və psixoloji nəticələr

Toy üçün borca girmək təkcə iqtisadi yox, həm də psixoloji yük yaradır. Ailələr evliliyin ilk illərində maliyyə təzyiqi altında qalır, bu da stress, depressiya və ailə münaqişələri riskini artırır. Sosioloqlar hesab edirlər ki, ailə münasibətlərinin sağlam təməldə qurulması üçün ilk mərhələdə maliyyə sabitliyi və qarşılıqlı anlayış mühümdür. Lüks toy isə bu sabitliyi sarsıda bilər.

## Alternativ yanaşmalar və müasir tendensiyalar

Dünyada və Azərbaycanda artıq bir çox gənc "minimalist toy" anlayışını qəbul etməyə başlayıb. Bu, aşağıdakı prinsiplərə əsaslanır:

- Az sayda qonaq dəvət etmək
- Açıq hava və ya sadə məkanlarda nikah mərasimi
- Xərcləri simvolik və mənalı formada paylaşmaq
- Maddi yükü deyil, emosional və mənəvi dəyərləri önə çəkmək

Beləliklə, sadə toy modelləri həm ailələrin borc yükünü azaldır, həm də cəmiyyətin dəyərlər sistemində sağlam dəyişikliklər yaradır.

Toy etmək üçün borca girmək - iqtisadi baxımdan riskli, sosial baxımdan isə mədəni təzyiqlərlə formalaşmış bir davranış modelidir.

Əslində, ailə qurmaq - iki gəncin birgə həyat qurmaq qərarıdır və bu qərarın uğuru toya sərf edilən pulla deyil, münasibətlərin sağlamlığı ilə ölçülməlidir. Dünyada və Azərbaycanda artan maliyyə savadlılığı təşəbbüsləri və sadə toy hərəkatları göstərir ki, müasir gənclik daha çox "borcsuz xoşbəxtlik" modelinə üstünlük verir.

***Ayşən Vəli***

# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*



**ELMİN SONU**

*(XXXVII YAZI)*

Seriyamızın əvvəlki hissələrində insanın, bitkilərin, heyvanların, ümumiyyətlə həyatın necə yarandığı haqqında elmi və dini dəlilləri, o cümlədən, insanın maddi və ruhi enerjilərdən necə təşkil olunduğu və bunlar arasındakı qarşılıqlı əlaqədən danışmışıq. Bu hissədə isə şüurun necə və nədən formalaşdığı, onun həyatımızda hansı rolu oynadığından danışacağıq.



### Həyatın quruluşu nəzəriyyəsi- 2-ci hissə

Fəal hisslər ölü materiyadan üstündür, ağıl hisslərdən üstündür, dərrakə ağıldan üstündür, can (ruh) isə dərrakədən də üstündür- Bhaqavad-Qita, 3,42.

Şüurun tam olaraq nə olduğu, necə formalaşdığı və həyatımıza necə təsir etdiyi haqda elmi izahlar kifayət qədər əsaslı deyil və bu haqda araşdırmalar davam edir. Burada texniki və bioloji elmlərlə yanaşı, dini-fəlsəfi biliklərin və metafizik təzahürlərin rolu birgə öyrənilməlidir. Çünki şüur qeyri-maddi olsa da, maddi bədəndə yaranır və bioloji proseslər vasitəsilə fəaliyyət göstərir. Maddi olmayan enerji necə şüurlu ola bilər və ya maddə necə şüur yarada bilər sualları cavabsızdır.

İvan Platonov "Həyatın quruluşu nəzəriyyəsi"- "İnsan və ruh" mövzusunda əsas tədqiqat" (İ.Platonov. Teoriə strukturı jizni. Bazovoe issledovanie "çelovek-duşa") əsərində bu sualları elmi və fəlsəfi tərəfdən əlaqəli şəkildə araşdırır.

Alim hesab edir ki, şüur 2 hissədən ibarətdir- cari şüur (ağıl) və şüuraltı (təhtəlşüur). Bu hissədə əsərdə bununla bağlı verilmiş bir sıra məqamları nəzərdən keçirəcəyik.

Şüur, təhtəlşüur, ağıl, intellekt, düşüncə- təqribən eyni məna daşıyan, lakin məzmunu fərqli olan sözlərdir. Şüur və təhtəlşüuru iki keyfiyyət kimi ayıraq (bunlar bədənin yox, ruhun keyfiyyətləridir). Tutaq ki, onlar eyni zehnin iki fərqli hissəsidir. Və bu hissələr bəzən səhər yuxudan oyanmaq timsalında olduğu kimi bir-birinə qarşı çıxır. Şüurlu ağıl anlayır ki, oyanmaq, ayağa qalxmaq, aktiv olmaq vaxtıdır, lakin şüuraltı ağıl heç nə demir, başa düşmür, sadəcə olaraq bədəni yorğun vəziyyətdə saxlayır, onu hərəkətsiz yatmağa məcbur edir.

Buradan belə nəticəyə gəlirik ki, şüuraltı zehin iradəni boğaraq bədənimizi idarə edir, şüurlu ağıl isə sadəcə olaraq bədəni yaşamağa, hərəkətləri əlaqələndirməyə kömək edir.

Şüuraltı zehnin hadisələri idarə edə biləcəyini təsəvvür etmək olar, lakin bu, ayrı, daha geniş mövzudur. İnsan bədəni də şüur vasitəsilə hadisələri idarə edə bilir, lakin bu hadisələr sadədir, belə ki, təsvir etmək, məntiqi və hesablamaq olar.

"Bil və agah ol, gördüyün hərəkət edən və hərəkət etməyən şeylərin hamısı yalnız fəaliyyət sahəsinin və sahəni bilənin birləşməsidir"- Bhaqavad-Qita, 13, 27.

İnsan ilahi surətində və keyfiyyətlərdə yaradılmışdır, yəni o, təkcə insanların deyil, mələklərin də malik olduğu xüsusiyyətlərə malikdir. Sadəcə olaraq, insanlar dünyəvi, fiziki həyatlarında bu xas xüsusiyyətlərə nəzarət edə bilmirlər. İnsanlar potensial olaraq uça bilər, nəfəs almaya, yeməyə və içməyə bilər və bizə məlum olmayan daha çox şey var. Bəzən bu keyfiyyətlər bəzi insanlarda nəinki oyanır, əksinə, sanki içəridən cücərirlər. Beləliklə, Hindistanda yoqlar, Çində zahid filosoflar, ekstrasenslər və digər qeyri-adi qabiliyyətlərə malik şəxslər meydana çıxır.

Odur ki, bioloji və anatomik baxımdan başa düşülən və nədənsə digər bioloji varlıqlarla, qeyri-ağıllı və hətta ən sadə, protozoa ilə müəyyən qohumluq əlaqələri paylaşan bioloji varlıq olan insanlara qayıdaq.

Sonuncu izahat, aşağı səviyyəli canlılarla qohumluq əlaqəsi də olduqca başa düşüləndir. Yer planeti və onun bioloji kütləsi (flora və fauna) vahid orqanizmi təşkil edir. Yaradan dünyanı yaradarkən, ehtimal ki, Yeri kainatın mərkəzi etməmiş, onu ümumi bir düstura (riyazi dildən istifadə etmək üçün) görə yaratmışdır. Buna görə də insan orqanizmi öz embrion inkişafında quşların, balıqların və digər orqanizmlərin orqanizminə bənzəyir. Lakin insanla bu varlıqlar arasında inanılmaz dərəcədə fərq var- əlbəttə bioloji fərq az olsa da, şüur, ağır, dərrakə cəhətdən fərq sonsuzdur.

Və burada paralel bir mövzu ortaya çıxır: bədən nədir, ruh nədir?



Çoxdan məlum olub ki, həyat ölümdən sonra bitmir. Ölümün nə olduğu ilə bağlı mübahisələr uzun müddətdir davam edir. Həyatın nə olduğunu müəyyən etməyənə qədər ölümün nə olduğunu başa düşməyəcəyik. Bunun üçün isə yenidən "şüur" və "təhtəlşüur" anlayışlarına qayıdacağıq.

Şüur indi bizik. Bu, görünən üçölçülü dünyada bizim zəif qabiliyyətlərimizdir. Bu, böcəklərin ağac gövdəsini məhv etməsi kimi, bədəni viruslar və parazitlər tərəfindən məhv edilməzdən əvvəl idarə etmək qabiliyyətidir. Lakin hər bir halda sonda bədən "quruyur", yəni həyati şirələri və toxunulmazlığı zəifləyir- nəm və mineral çatışmazlığı olan bir ağac kimi quruyur.

Şüuraltı isə bizim şüurumuzun imkanlarının hüdudlarını belə dərk edə bilmədiyi şeyləri etməyə qadir olan güclü potensialdır.

Bəs niyə biz istifadə edə bilmədiyimiz böyük potensiala malikik?

Yalnız bir nəticə var. Bu potensiallar qısa ömürlü, bəzən isə qəfil ölümlə nəticələnən bədənimiz üçün deyil, ruhumuz üçün nəzərdə tutulub.

Bu nəticədən bir nəticə çıxarırıq. Bədənimiz doğulur, yaşayır və ölür, ruh inkişaf etmiş olsa da, o, hələ də embrion vəziyyətdədir. Hamiləlikdən doğuşa qədər ananın bədənində döl kimi.

Qadın-ana uşağa hamilədir, onu daşıyır, dünyaya gətirir. Yeni doğulmuş bədən ona verilən ruhu müəyyən bir müddət daşıyır və ölür, ruh dediyimiz isə yeni bir maddədə yenidən "doğulur".

Burada çox aydın bir bənzətmə var:

Tırtıl - xrizalis - kəpənək.

İnsan - ölüm - ruh.

Təbii çevrilmə prosesi

"İnsan köhnə paltarı çıxarıb təzə paltar geydiyi kimi, can da qoca və faydasız bədəni tərk edib, təzə maddi bədən alır"- Bhaqavad-Qita, 2, 22).

İnsan bədəni ruh üçün canlı, hərəkət edən və düşünən bir baramadır.

Amma ruh canlıdır. Sadəcə uşaq, körpə kimidir. Ruhun şüuru isə psixiatrların müşahidə etdiyi insanın şüuraltıdır. Beləliklə, şüuraltı, kiçik bir uşaq kimi, axmaq, sadəlövh, inadkardır və çox vaxt səhv edir. Şüuraltı tez-tez aktiv olduqda, şüurlu ağıl sıxılır. Biz bu prosesə ruhi xəstəlik deyirik; biz şüuraltı olaraq anlayırıq ki, xəstənin içindəki ruh xəstədir, lakin bununla bağlı heç nə edə bilmirik. Ancaq şüuraltı ruhun xəstəliyini lokallaşdırmaq üçün oyanır. Ancaq belə sıxılmış şüurla insan ağılsızlıqdan tutmuş cinayətkarlığa qədər irrasional hərəkətlər edir. Cəmiyyət isə belə insanları psixiatriya xəstəxanalarında, həkimlərin nəzarəti və müşahidəsi altında təcrid edir.

Bəs şüuraltını vaxtından əvvəl oyatmadan, təsadüfən ruhu yaralamadan və vaxtından əvvəl ölmədən necə yaşamaq olar?

Yeri gəlmişkən. Tibb müəyyən etdi ki, əsəb sarsıntıları fiziki xəstəliklərə səbəb olur, yəni bədənin fiziki məhv edilməsi prosesi (xəstəliklər, patologiyalar) başlayır. Eynilə, şüuraltı sarsıntılar ruhun "məhvinə" səbəb olur.

Beləliklə, şəxsiyyətimizin- "mən"imizin əsas komponentini- ruhu qorumaq üçün necə yaşaya bilərik?

Cavab minilliklərdir. Varlıq qanunları Yaradan tərəfindən hər bir xalqa çoxdan ötürülüb. Və yeni bir şey icad etməyə ehtiyac yoxdur. Zaman göstərdi ki, hər hansı bir yenilik, yəni həyat tərzini tənzimləyən dini qanunlara yenidən baxılması və onların dəyişdirilməsi yalnız bədənə, sinir sisteminə və ruha zərər verir.

Elm artıq insanın yalnız maddi bədəndən ibarət olmadığını, onun maddi dünyadakı doğuşla başlamayan şüuraltıya, ruhi şəxsiyyətə malik olduğunu çoxdan sübut və qəbul edib. Lakin materialist elm qeyri-maddi dünyanı öyrənə bilmir, onun bunun üçün ölçmə və təcrübədən keçirmə vasitələri yoxdur. Bu, artıq antimaddə, antidünya, kvant dünyasından qeyri-maddi aləmlərə keçid məsələlərini aktuallaşdırır. Necə ki, fizikadan metafizikaya gedən yol artıq görünür, mikrobiologiyadan DNT-yə ruhi enerji vasitəsilə yazılmış kodlara gedən yol artıq görünür, eləcə də bioloji varlıqdan, maddi həyatdan sonsuz həyata, ruhi enerjilərə keçid artıq görünür. Görünür deyərkən, hiss olunur, qəbul olunur, lakin ona toxunma və müdaxilə imkanlarımız yoxdur. Bu, insanların maddi dünyadan fiziki olaraq girə bilməyəcəyi tamam başqa kainatdır- ruhi və maddi kainatların keçilməz sərhəddi var- bu maddə ilə antimaddə arasındakı sərhəd kimidir. Bu məqamlar müasir texniki və bioloji elmlərlə izah oluna bilməsə də, dini-fəlsəfi elmlər, müqəddəs kitablarda aydın və məntiqli şəkildə izah olunur. Bu hissədə, biz ərincəklikdən yalnız bir müqəddəs kitabdan sitatlar verdik, lakin hamısında bu məqamlar qeyd olunur.

Baqavad-Qita 3-cü fəsildə Tanrı deyir: Müvəqqəti olan [maddi bədən] fanidir, əbədi olan [can] isə dəyişməzdir bütün bədənə nüfuz edən dağılmazdır ölməz canı heç kəs məhv edə bilməz canlı varlıq dağıdılmaz, ölçüyəgəlməz və əbədidir, maddi bədən isə məhvə məhkumdur Can heç vaxt doğulmur və ölmür. O, mövcudluğunu heç vaxt dayandırmır. O, doğulmaz, əbədi, həmişəyaşar, ölməz və əzəlidir. Bədən öldürüldükdə o ölmür

(Ardı olacaq)

***Elçin Bayramlı***

SƏS

16 oktyabr
2025-ci il

# Kompüter qarşısında çox vaxt keçirənlərə XƏBƏRDARLIQ!

## *Professor Paşa Qəlbinur mühüm məqamlara aydınlıq gətirdi*





“Kompüter qarşısında uzun saatlar çalışan insanlar göz sağlamlıqlarını qorumaq üçün bir sıra tədbirlər görməlidirlər. Bu cür iş rejimi zamanı gözlər davamlı olaraq ekrana fokuslandığı üçün yorğunluq, quruluq, yanma, bulanıq görmə və digər narahatedici simptomlar meydana çıxa bilər”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Tibb Universitetinin oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur deyib. Onun sözlərinə görə, bu halların qarşısını almaq üçün ilk növbədə xüsusi qoruyucu eynəklərdən istifadə etmək tövsiyə olunur: ”Mavi işığı süzgəcdən keçirən bu eynəklər gözləri zərərli ekran şüalarından qoruyur və onların daha az yorulmasına kömək edir. Bundan əlavə, retina üçün qoruyucu xüsusiyyətə malik göz damcılarından istifadə etmək də göz quruluğunu və yorğunluğunu azaltmağa kömək edə bilər. Bu damcılar gözün nəmlənməsini təmin edir və ekran qarşısında uzun müddət işləyən şəxslər üçün olduqca faydalıdır. Uzun müddət kompüter ekranına baxmaq təkcə gözlərə deyil, ümumi sağlamlığa da mənfi təsir edə bilər. Buna görə iş mühitinin düzgün təşkili vacibdir. Ofis otaqları kifayət qədər işıqlı olmalıdır. Təbii işıq üstünlük təşkil etməli, süni işıqlandırma isə gözləri yormayan səviyyədə olmalıdır. İş masasının və oturacağın hündürlüyü bir-birinə uyğun olmalıdır ki, oturan şəxs düzgün və rahat bədən vəziyyətində işləyə bilsin. Bu həm də onurğa, boyun və bel ağrılarının qarşısını almağa kömək edir.

Eyni zamanda, fasilələrə riayət etmək olduqca önəmlidir. Hər 45-50 dəqiqəlik fasiləsiz işdən sonra ən azı 5-10 dəqiqəlik qısa fasilə verilməlidir. Bu zaman gözləri ekrandan uzaqlaşdırmaq, pəncərədən uzaqlara baxmaq və ya yüngül gəzinti etmək tövsiyə olunur. Bu cür qısa fasilələr gözlərin dincəlməsinə, qan dövranının yaxşılaşmasına və ümumi məhsuldarlığın artmasına müsbət təsir göstərir. Kompüter qarşısında uzun müddət işləyən şəxslər həm göz sağlamlıqlarını, həm də ümumi bədən sağlamlıqlarını qorumaq üçün düzgün iş şəraiti yaratmalı, qoruyucu vasitələrdən istifadə etməli və fasilələri unutmamalıdırlar. Bu cür sadə, lakin təsirli tədbirlər gələcəkdə daha ciddi sağlamlıq problemlərinin qarşısını almağa yardım edir”.

***Arzu***

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Ronaldo rekordlara doymur - bu dəfə dünya çempionatında!



Portuqaliyalı ulduz futbolçu Kristiano Ronaldo dünya çempionatlarının seçmə mərhələlərində vurulan qolların sayına görə yeni rekorda imza atıb. Belə ki, 40 yaşlı hücumçu Portuqaliya millisinin heyətində Macarıstanla matçın 22-ci dəqiqəsində fərqlənərək hesabı açıb. Daha sonra isə komandasının ikinci qoluna imza atıb. Qarşılaşma 2-2 hesabı ilə başa çatıb. Bu, Ronaldonun dünya çempionatlarının seçmə oyunlarında vurduğu 41-ci qol olub. Ronaldo Qvatemala seçməsinin sabiq futbolçusu Karlos Ruisi (39 qol) geridə qoyaraq, dünya çempionatlarının seçmə mərhələləri tarixindəki ən yaxşı bombardiri adına yiyələnib.

EKSPERT AÇIQLADI

# DİQQƏT: İrandan gətirilən ucuz qidalar təhlükəlidir?

Son vaxtlar bazarlarda mənşəyi bilinməyən, xüsusilə də İrandan gətirilən ucuz qida məhsullarına tələbat artıb. Üzərindəki yazılar fars dilində olduğu üçün alıcılar bu məhsulların tərkibi və keyfiyyəti barədə məlumat ala bilmirlər. Halbuki, belə məhsullar sağlamlıq üçün ciddi təhlükə yarada bilər. Bəs, istehlakçı təhlükəsiz qidanı necə tanıya və seçim zamanı nələrə diqqət etsin? Bu məhsulların keyfiyyətinə nəzarət varmı? Daha ucuz qiymətə satılan qidaların tərkibi təmizdirmi?

Məsələ ilə bağlı qida mütəxəssisi Asim Vəliyev SİA-ya açıqlamasında bildirib ki, ucuz məhsullar istehsal edilərkən çox vaxt keyfiyyəti aşağı xammaldan, normadan artıq konservant və boya maddələrindən istifadə olunur: ”Bu maddələr orqanizmdə uzunmüddətli təsir göstərərək qaraciyər, böyrək və mədə-bağırsaq sisteminə zərər vura bilir. Xüsusilə süd məhsulları, ədviyyatlar, şirniyyatlar və içkilər kimi məhsullarda qida qatqılarının normadan artıq olması allergiya, hormonal pozğunluq və həzm problemləri yarada bilər. Məhsulun üzərində Azərbaycan dilində məlumat olmalıdır. İstehsalçı, tərkib, enerji dəyəri və son istifadə tarixi mütləq göstərilməlidir. Əgər bunlar yoxdursa, məhsul qanunsuz idxal hesab olunur. Qida məhsulu günəş işığında, yüksək temperaturda satılırsa, keyfiyyəti artıq şübhə altındadır.



Real bazar qiymətindən xeyli ucuz və ya qeyri-peşəkar qablaşdırılmış məhsullardan uzaq durmaq lazımdır. Qida kəskin, süni qoxu yayırsa, normadan artıq parlaq rənglidirsə, tərkibində kimyəvi qatqılar çoxdur. Qida Təhlükəsizliyi Agentliyi ölkəyə idxal olunan məhsulların keyfiyyətinə nəzarət edir. Lakin bazara rəsmi qeydiyyatsız, fərdi yollarla gətirilən mallar nəzarətdən kənarda qalır. Bu cür məhsulların çoxu sertifikatsız olur, yəni onların təhlükəsizlik standartlarına cavab verdiyi sübut edilməyib. Buna görə də istehlakçı yalnız sertifikatlı və qeydiyyatdan keçmiş markalara üstünlük verməlidir. Satıcıdan məhsulun mənşəyi və sənədi barədə soruşmalıdır”.

***A. Qurbanlı***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000